www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28 dekabr 2016-cı il Çərşənbə № 290 (6611) Qiyməti 60 qəpik

**Xəbər**

## Marneulidə azərbaycanlı qadın ərini baltalayıb öldürdü

yazısı səh.14-də

**Gündəm**

### İlin top 10 hadisəsi - Azərbaycan təlatümlü bir ilə girir




Terrordan yan ötsə də, ölkə üçün 2016 daha gərgin keçdi, apreldə toplum "məğlubiyyət sindromu"nu sındırdı, ancaq sosial-iqtisadi durum pisləşməkdə davam etdi; dövlət və cəmiyyətə qarşı yeni təhdidlər ortaya çıxdı...

yazısı səh.6-da

### Gələn ilin ilk sürprizini manat edə bilər: dollar 2 manatı ötəcək

yazısı səh.3-də

### Partiyalarda ilsonu tədbirləri; 2016-ya Elçibəyin məzarı önündə yekun vuranlar da var

yazısı səh.4-də

### Müsəlman ölkələrini bürüyən xaosun səbəbi

yazısı səh.13-də

### Məclisin Astanı, Azərbaycanın "daşdan pul çıxaran" oğulları və "Piter Elçin"in zəngi...

yazısı səh.5-də

### "Əli Əhmədov hakimiyyətin planlarını bilir"-politoloq

yazısı səh.4-də

### Trampın prezidentliyi ABŞ-ın basqısı altında olanlara nə vəd edir...

yazısı səh.10-da

### YAP-çı xanım deputat erməni qadınlarına müraciət etdi

yazısı səh.11-də

*Elxan Şahinoğlu:*

### "2016-cı il göstərdi ki, torpaqlarımızı güc yolu ilə geri ala bilərik"

yazısı səh.10-da

### İlqar Məmmədov və digərlərinin məsələsi marta qaldı

yazısı səh.11-də

## Lukaşenkodan İlham Əliyevə mühüm jest

# SƏRKİSYANIN PETERBURQ FİASKOSU - AZƏRBAYCAN AMİLİ ÖNDƏ

Düşmən ölkənin başçısı Rusiyadan pərt döndü; "Rus NATO"su yenə erməniyə etibar edilmədi; bu dəfə Belarus işğalçı ölkənin planını pozdu; Minsk Lapşini də Bakıya təhvil verərsə...




yazısı səh.7-də

## İŞİD-çinin müraciətindən bir gün sonra Səngəçalda partlayış: terror, yoxsa texnogen qəza?

Azərbaycanlı "cihadçı"nın videoçıxışının yayılmasının üstündən 1 sutka keçən kimi baş verən hadisə diqqətləri təxribat versiyasının üstünə cəmləyir; ekspert isə bildirir ki, terrorçular öncədən xəbərdarlıq etmir...

yazısı səh.12-də



*Rauf Arifoğlu:*

### "Qəzetlərin mövcudluğunu təhlükəyə atacaq bir vəziyyətlə üzləşmişik"

yazısı səh.3-də



*Eldar Namazov:*

### "Trampın Rusiya haqda dediyi isti sözlərə aldanmaq lazım deyil"

yazısı səh. 8 və 9-da



### Eldar Quliyevin "Azərittifaq"ı ləğv olunacaqmı...

yazısı səh.4-də



## Prezident İran nümayəndə heyətini qəbul etdi

### "Həsən Ruhani İran-Azərbaycan əlaqələrinin inkişafına dair yol xəritəsi hazırlamağı tapşırıb"

**Prezidenti İlham Əliyev İran İslam Respublikasının rabitə və informasiya texnologiyaları naziri, hökumətlərarası birgə komissiyanın həmsədri Mahmud Vaezinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

APA-nın məlumatına görə, 2016-cı ilin Azərbaycan-İran əlaqələrinin tarixində xüsusi yer tutduğunu vurğulayan dövlət başçısı bu il ərzində baş tutan görüşlərə toxunaraq İran İslam Respublikasının prezidenti Həsən Ruhani ilə çox səmərəli görüşün keçirildiyini məmnunluqla xatırlayıb.

Prezident İlham Əliyev ölkələrimiz arasında bu il həmçinin önəmli sənədlərin imzalandığını və onların artıq icra edildiyini deyib. 2017-ci ilin də uğurlu olacağına, ölkələrimiz arasında dostluq münasibətlərinin daha da möhkəmlənəcəyinə və mühüm əhəmiyyət daşıyan layihələrin icra olunacağına əminliyini ifadə edən dövlət başçısı əlaqələrimizin genişləndirilməsində hökumətlərarası birgə komissiyanın fəaliyyətini xüsusi qeyd edib. Dekabrın 29-da Naxçıvan-Təbriz-Tehran-Məşhəd beynəlxalq sərnişin qatarının ilk reysinin yola salınacağını əlamətdar hadisə kimi dəyərləndirən prezident İlham Əliyev dəmir yolunun fəaliyyətinə uğurlar arzulayıb.

M. Vaezi isə ad günü münasibətilə Azərbaycanın dövlət başçısını təbrik edib. O, eyni zamanda Yeni il bayramı münasibətilə də prezident İlham Əliyev və və Azərbaycan xalqına xoş arzularını çatdırıb. M. Vaezi ona İran prezidentinin hökumətlərarası birgə komissiyanın iclası çərçivəsində prezident İlham Əliyevin tövsiyələrinin yerinə yetirilməsi və 2017-ci ildə ölkələrimiz arasında əlaqələrin inkişafı ilə bağlı yol xəritəsinin hazırlanmasına dair tapşırıqlar verdiyini bildirib.

Görüşdə 2016-cı ildə Azərbaycanla İran arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən ticarət mübadiləsinin artımı, investisiya qoyuluşu, nəqliyyat, kənd təsərrüfatı və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, ölkələrimizin regionları arasında əməkdaşlığın genişləndirilməsinin önəmi qeyd olunub, Neftçalada avtomobil zavodunun inşasının uğurla davam etdirilməsi və yaxın vaxtlarda Pirallahıda birgə dərman istehsalı zavodunun təməlqoyma mərasiminin keçiriləcəyi iqtisadi sahədə əməkdaşlığımızın yaxşı nümunəsi kimi dəyərləndirilib.

Söhbət zamanı Naxçıvanda keçiriləcək Azərbaycan-İran biznes-forumunun önəmi vurğulanaraq forumun ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olunub.

## 2017-ci il dövlət büdcəsi təsdiqləndi - mədaxil cədvəli

**Azərbaycan prezidenti İlham Əliyev 2017-ci il dövlət büdcəsi haqqında qanunu təsdiqləyib. "APA-Economics" xəbər verir ki, ölkə başçısı bununla bağlı müvafiq fərman imzalayıb.**

Sənədə əsasən, 2017-ci il dövlət büdcəsinin gəlirləri 16 mlrd. 255 mln. manat, xərcləri 16 mlrd. 900 mln. manat (o cümlədən mərkəzləşdirilmiş gəlirləri 15 mlrd. 634 mln. 706 min manat, yerli gəlirləri 620 mln. 294 min manat, mərkəzləşdirilmiş xərcləri 16 mlrd. 211 mln. 286 min manat, yerli xərcləri 688 mln. 714 min manat) məbləğində təsdiq edilib.

Büdcənin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulub:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (min manatla) |
|---|---|---|
| 1 | 2 | 3 |
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 1 168 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 2 179 000,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 50 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 178 000,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 4 137 000,0 |
| 2.5.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 1 639 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 344 000,0 |
| 2.7. | Aksizlər | 608 000,0 |
| 2.7.1. | Azərbaycan Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 90 000,0 |
| 2.8. | Yol vergisi | 89 000,0 |
| 2.8.1. | Xarici dövlətlərin avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 17 000,0 |
| 2.9. | Mədən vergisi | 111 000,0 |
| 2.10. | Gömrük rüsumları | 454 000,0 |

# Bakıda Putinə sui-qəsdi kim hazırlamışdı?

**Rusiyanın NTV telekanalı Vladimir Putinə Bakıda planlaşdırılan sui-qəsd barədə danışıb. Modern.az xəbər verir ki, 2002-ci ilin yanvarında baş verən həmin hadisəyə vaxtilə Azərbaycanın mərhum prezidenti Heydər Əliyev və sabiq milli təhlükəsizlik naziri Namiq Abbaasov da münasibət bildirmişdi.**



"Terror aktını İraq vətəndaşı Kənan Rüstəmov törətməli idi. O, «əl-Qaidə» lideri Üsəma bin Ladenin adamları ilə də əlaqədə olub. Putinin səfərindən 3 ay öncə Azərbaycan Milli Təhlükəsizlik Nazirliyi ona qarşı Bakıda sui-qəsdin planlaşdırıldığı barədə məlumat alır. Səfərin başlanmasına 10 gün qalmış isə MTN partlayıcıların Azərbaycan ərazisinə gətirildiyini müəyyənləşdirir".

Proqramda bu vaxta qədər heç bir azərbaycanlı jurnalistin terrorçu ilə maraqlanmadığı və ondan müsahibə almağa maraq göstərmədiyi bildirilib.

Kənan Rüstəmovun Qobustanda xüsusi rejimli cəzaçəkmə müəssisəsində saxlanıldığı bildirilir.

## İsrail bu ölkələrlə əlaqələrini kəsir

**İsrail BMT Təhlükəsizlik Şurasında Tel-Əvivin məskunlaşma siyasətinə qarşı qəbul edilən qətnamənin lehinə səs verən ölkələrlə əlaqələrini müvəqqəti olaraq məhdudlaşdırır.**

Axar.az xəbər verir ki, bunu "RİA Novosti" agentliyinə açıqlamasında İsrail Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Emmanuel Naxşon söyləyib.

O, Tel-Əvivin əleyhinə səs verən ölkələrin yüksək vəzifəli şəxslərinə İsrailə gəlmələri üçün izn verilməyəcəyini bildirib.

Qeyd edək ki, BMT TŞ-də İsrailin məskunlaşma siyasətinə qarşı qətnamə qəbul edilib. Qətnamənin lehinə TŞ-nin 14 üzvü səs verib. Tel-Əviv əleyhinə layihəni dəstəkləyənlər sırasında Təhlükəsizlik Şurasının daimi 5 üzvündən 4-ü olub. ABŞ isə bitərəf qalıb.

## Dollar "qara bazar"da 2 manata yaxınlaşır

**Azərbaycan Mərkəzi Bankı (AMB) dekabrın 28-nə olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb.**

AMB-dən "APA-Economics"ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi dekabrın 27-si ilə müqayisədə 0,23% artaraq 1,7662 səviyyəsində müəyyən olunub. Xatırladaq ki, dekabrın 27-də dollar 1,7622 manata bərabər olub.

Qeyd edək ki, AMB-də Dövlət Neft Fondunun da iştirak etdiyi növbəti ikitərəfli valyuta hərracı keçirilib. Hərrac 1 dollar üçün 1,7622 məzənnəsi ilə başlayıb və 1,7662 məzənnəsi ilə yekunlaşıb.

Bankların valyuta satışından imtina etməsi, bütün qoyulan qadağalara baxmayaraq, "qara bazar"ın vüsət almasına səbəb olub.

Virtualaz.org-un əməkdaşının verdiyi məlumata görə, dünən Bakıda "qara bazar"da 1 ABŞ dolları 1,92 manata satılıb.




## Bərdədə telefon xətlərini kəsiblər

**Bərdənin Şirvanlı kəndində iki aydır ki, telefon xətləri kəsilib. Bu barədə "Yeni Müsavat"a kənd sakini Nəsimi Vəli məlumat verib. O bildirib ki, bir qrup şəxs yol kənarlarında olan telefon xətti dirəklərini yeniləmək adı ilə çıxarıblar. Lakin sonradan problem aradan qaldırlmayıb və 800 ev telefonsuz, internetsiz qalıb:**

"Prezidentin Bərdəyə səfəri ərəfəsində poçtun işçiləri gəlib, kəndin yol kənarında yerləşən telefon dirəklərini sökdülər. Bildirdilər ki, bu dirəklər köhnədir və kənardan baxanda yaxşı görünmür. Deyirdilər ki, prezident gəlir, dirəkləri yenidən bərpa edəcəyik. Dirəkləri çıxaran zaman kabelləri də açıb tökmüşdülər yerə. İki aya yaxındır ki, kabellər yerinə bağlanmayıb. Kənddə olan 800 evin demək olar ki, 80 faizində telefon var. Telefon xətti kəsildiyi üçün həm də internetimiz yoxdur. Lakin buna baxmayaraq bizdən telefon, internet üçün aylıq ödəniş tələb edirlər. Şəxsən mən xətlər kəsiləndən iki gün öncə internetin aylıq abunə haqqını ödəmişdim. Xətləri kəsdilər, işlətmədiyim internetin 28 gününün pulunu havayı ödəmiş oldum. Məsələ ilə bağlı aidiyyəti şəxslərə, poçta müraciət etsək də xeyri yoxdur. Rayonun mərkəzi poçtunda çalışan Qabil adlı mühəndis isə bizə bildirdi ki, kabelləri oğurlayıblar. Bizə deyirlər ki, kabelləri alın, gələk xətləri bərpa edək".

Məsələ ilə bağlı münasibət öyrənmək üçün Bərdə rayonu, Şirvanlı kənd poçt şöbəsi ilə əlaqə saxladıq. Poçtun rəisi Lətafət Abdullayevanın cavabı aşağıdakı kimi oldu: "Şəxsən mənim evimdə telefon işləyir. Ona görə də demək olmaz ki, kənddə bütün telefon xətləri kəsilib. Bəzi evlərin telefon xətləri kəsilib. Onların nə zaman bərpa edilib-edilməyəcəyini isə mən bilmərəm. Bu işə Bərdə Telekommunikasiya Qovşağı (ATS) baxır".

ATS-lə də telefon əlaqəsi yaratmağa cəhd etsək də, zənglərimizə cavab verilmədi.

❑ Əli RAİS

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**



## "Azərbaycanda reket mollalar da var" - Mübariz Qurbanlı

**"Azərbaycanda reket jurnalistlər olduğu kimi reket mollalar da var".**

APA-nın xəbərinə görə, bunu Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ilin yekunlarına dair mətbuat konfransında bildirib.

O qeyd edib ki, çox vaxt mətbuatda hansısa özünü molla kimi təqdim edənin davasını din xadimlərinin davası kimi təqdim edirlər: "Bu, yanlışdır. Araşdırsanız, görərsiniz ki, məzarlıqda dalaşanların mollalıq etməyə icazəsi də yoxdur. Özü özünü molla kimi təqdim edir. Bunlar reket mollalardır. Necə ki, mətbuatı reket jurnalistlər gözdən salır, həqiqi din xadimlərini də reket mollalar hörmətdən salır".

Komitə sədri deyib ki, Qafqaz Müsəlmanları İdarəsi belə "molla"lara fəaliyyət üçün icazə vermir.

"Azərbaycanda məzarlıqlarla bağlı məsələ qanun layihəsi formasında Milli Məclisə təqdim olunub".

Bunu da Mübariz Qurbanlı ilin yekunlarına dair mətbuat konfransında bildirib. O qeyd edib ki, layihənin hazırlanmasında komitə yaxından iştirak edib: "Yaxın zamanda bu məsələ müzakirə olunacaq".

## Azərbaycan İran vətəndaşları üçün viza rejimini sadələşdirir

**Azərbaycan gələn il İran vətəndaşları üçün viza rejimini əhəmiyyətli dərəcədə sadələşdirməyi planlaşdırır.**

«Trend»in məlumatına görə, bu sözləri iqtisadi, ticarət və humanitar əməkdaşlıq üzrə İran-Azərbaycan hökumətlərarası komissiyanın iclasında Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayev deyib.

Nazir deyib: "2017-ci il yanvarın 10-dan başlayaraq İran vətəndaşları Azərbaycana daxil olmaq üçün vizaları ASAN Viza sistemi ilə ala bilər, bu zaman onlar vizanı üç gün ərzində əldə edəcəklər".

### Başsağlığı

**Vilen Markoviç Applebaum keçmiş daxili işlər naziri İsgəndər Həmidova həyat yoldaşı Rəna Həmidovanın vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verir, ailəsinə və bütün yaxınlarına səbr diləyir. Allah rəhmət eləsin.**

***

**İnsan haqları müdafiəçiləri Novella Cəfəroğlu və Səidə Qocamanlı keçmiş daxili işlər naziri İsgəndər Həmidova xanımı Rəna Həmidovanın vəfatı ilə bağlı dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin.**

YENİ MÜSAVAT
N 290 (6611) 28 dekabr 2016

# Qəzet kağızına bükülmüş dollar - ölkənin çap mediası daha bir problemlə üz-üzə

**Ölkədə ciddi şəkildə dollar ajiotajı yaşanır. Banklar demək olar ki, dollar satmırlar. İş adamları, xaricə səfəri olanlar çıxılmaz durumdadır. "Qara bazar" isə genişlənib və burada dollar öz məzənnəsindən xeyli baha satılır. Mövcud durumda ölkə iqtisadiyyatı da təhlükəyə girib.**

Vəziyyət o dərəcədə pisdir ki, ölkənin print mediası da təhlükə ilə üzləşib. Media özünə lazım olan, yaşamasını təmin etmək üçün kağızı almağa dollar tapa bilmir. Hazırda "Yeni Müsavat" qəzeti qəribə vəziyyətlə üzləşib. Kağızın qiymətinin bazarda qalxması səbəbindən qəzet təşəbbüs göstərib ki, Rusiyadan özü kağız gətirsin. Bunun üçün lazım olan məbləğdə valyutanın toplanmasına ehtiyac yaranıb. "Yeni Müsavat"ın rəhbərliyi və qəzetin müvafiq şöbəsi nə qədər cəhd göstərsə də, gərəkən məbləği toplaya bilməyib. Bunun da səbəbi bankların dollar satmamasıdır. "Qara bazar"da isə dolların məzənnəsi rəsmi məzənnədən çox yüksəkdir. Bu səbəbdən də redaksiyaya "qara bazar"dan Azərbaycan manatı ilə dollar alıb, onu Rusiyaya göndərmək və qəzet kağızı almaq sərf etmir.



**Rauf Arifoğlu:** "Qəzetlərin mövcudluğunu təhlükəyə atacaq bir vəziyyətlə üzləşmişik"



**Əkrəm Həsənov:** "Dövlət orqanlarının fəaliyyətsizliyi nəticəsində sahibkarlar pis vəziyyətdə qalıblar"

**"Yeni Müsavat" Media Qrupunun rəhbəri Rauf Arifoğlu məsələ ilə bağlı bildirdi ki, çarəsiz durumdur:** "Qəzetlərin mövcudluğunu təhlükəyə atacaq bir vəziyyətlə üzləşmişik. Biz qəzet satışından qazandığımız Azərbaycan manatını xarici valyutaya çevirə bilmirik. Hesabımız olan banklara, bank sektorunda tanıdığımız insanlara müraciət etdik, lakin bu, mümkün olmadı. Hər bank uzaqbaşı bir adama yüz dollar sata biləcəyi ilə bağlı açıqlama verdi. Bu da bizim üçün o deməkdir ki, rəsmi kursla dollar almaq mümkün olmayacaq. Kağızın tonunun Bakıdakı qiyməti isə 680 -700 dollaradır. Kağız gətirənlər tələb edirlər ki, biz hətta Bakıda belə qəzet kağızının pulunu dollarla ödəyək. Yaxud da "qara bazar"ın həmin günə olan kursu ilə manatla ödəməyimizi istəyirlər. Çarəsiz bir durum yaranıb. Bu vəziyyətdən çıxış yolu demək olar ki, görünmür. Buna görə də iqtisadi sektorun müvafiq rəhbərlərinə müraciət etməyə məcburuq ki, qəzetlərə kağız alınması üçün rəsmi kursla dollar satsınlar".

**Ekspert Əkrəm Həsənov isə musavat.com-a bildirib ki, "qara bazar"ın genişlənməsi dövlət qurumlarının günahıdır:** "Həmçinin alqı-satqının dollarla aparılması da qanunsuzdur. Bu yaxınlarda bu istiqamətdə bir məhkəmə prosesini udduq. Alqı- satqı müqaviləsini dollarla bağlayan şirkət uduzdu. Bəziləri birbaşa dollarla bağlamırlar, amma manatın gündəlik kursu ilə ödəniş edilir. Bunlar da qanunsuzdur. Yəni Konstitusiyanın, Mülki Məcəllənin müvafiq maddələrinin pozulmasıdır. Konstitusiya Məhkəməsinin bu maddələrə dair şərhi də var. Şərhdə də bildirilir ki, yerli şəxslər arasında kredit və bank əmanəti istisna olmaqla, digər müqavilələr xarici valyutada ola bilməz. Bu baxımdan, Azərbaycanda satıcının qiyməti xarici valyuta ilə hesablaması qanunsuzdur. Amma məsələnin digər tərəfi də ondan ibarətdir ki, satıcıları da başa düşmək olur. Onlar aldıqları malı xarici valyuta ilə alıblar və onu da ölkədəki "qara bazar"dan əldə edirlər. Satıcılar məcburdurlar ki, dollarla aldıqları malın qiymətini hər gün dollara uyğunlaşdırsınlar. Çünki yenə də mal alarkən dollar verməlidir. Amma satıcılar dolların kursunu Mərkəzi Bankın təyin etdiyi məzənnəyə uyğun yox, "qara bazar"dakı məzənnəyə uyğun qoyurlar. Bu halı mən süni qiymət artımı saymıram. Dövlət özü Mərkəzi Bankın simasında kifayət qədər dollar satmırsa və buna görə də "qara bazar" varsa, xaricdən mal alan satıcı neyləsin? O da məcburdur ki, dolları "qara bazar"dan alsın, dövlət onu buna məcbur edir. Faktiki olaraq, dövlət orqanlarının fəaliyyətsizliyi nəticəsində sahibkarlar pis vəziyyətdə qalıblar. Bunun nəticəsində istehlakçılar da çətin duruma düşüblər. Hazırda valyuta bazarında olan biabırçılıq iqtisadiyyatımızı iflic vəziyyətə salıb. Növbəti devalvasiyadan sonra vəziyyət sabitləşə bilər".

❑ Röya RƏFİYEVA

# Gələn ilin ilk sürprizini manat edə bilər: dollar 2 manatı ötəcək

## Ekspertlərin fikrincə, artıq Milli Bankın rəsmi məzənnə siyasətinin əhəmiyyəti qalmayıb

**Milli valyuta olan manatın durumu ürəkaçan deyil. Artıq rəsmi məzənnə demək olar ki, əhəmiyyətini itirib. Dollar ancaq "qara bazar" vasitəsilə alınıb-satılır. Banklarda dollar satılmaması bir çox ciddi çətinliklər yaratmaqdadır. Ekspertlər isə durumun getdikcə pisləşəcəyi qənaətindədirlər.**



Ekspertlər manatın bu ili necə başa vuracağı və gələn il aqibətinin necə olacağı barədə ehtimallarını musavat.com-la bölüşüblər.

**Ekspert Əkrəm Həsənov məsələ ilə bağlı bildirib ki, əslində manat dollara nisbətdə "qara bazar"da 1,95 həddindədir:** "Dollar 1,95 manat məzənnəsi ilə dəyişdirilir. Yəni bu, artıq faktiki manatın real bazar dəyəridir. İstənilən ölkədə "qara bazar" əmələ gəlir. Bu, dövlətin süni məhdudiyyətlər qoyduğu ölkələrə aiddir. "Qara bazar" dünyanın inkişaf etmiş ölkələrində də olur. Amerikada da var. Yəni valyuta bazarları yoxdur, amma dövlət hansı əmtəəyə məhdudiyyət qoyursa, orada avtomatik "qara bazar" yaranır. "Qara bazar"da olan qiymət də məhsulun əsl dəyəridir. Artıq milli valyutamız kəskin üçüncü devalvasiyaya məruz qalıb. Sadəcə, Mərkəzi Bank bunu etiraf etmir. Dolların hazırda qiyməti 1,76 manatdır. Amma bu qiymətə alqı-satqı yoxdur. Mərkəzi Bankın rəsmi məzənnəsi artıq əhəmiyyətini itirib. Bu vəziyyət çox davam edə bilməz. Əks halda, bütün iqtisadiyyat iflic olacaq. Düşünürəm ki, gələn ilin əvvəlində dollar təxminən 2 manat məzənnəsi ilə başlayacaq. Mərkəzi Bank baş verənləri etiraf edəcək. Gələn ilin ilk ayları ərzində dollar iki manatı keçəcək".

**Ekspert Natiq Cəfərli isə musavat.com-a açıqlamasında bildirib ki, artıq rəsmi məzənnənin hansı səviyyədə olması vətəndaşları az maraqlandırır:** "Çünki bu, formallığa çevrilib. İqtisadi dəyəri olmayan bir məsələyə çevrilib. Çünki rəsmi məzənnə ilə nə dollar almaq olur, nə də ümumiyyətlə valyutaya sərbəst çıxış imkanları var. Bu da valyutanın məzənnəsindən daha az əhəmiyyətli məsələ deyil. Dollara çıxış imkanı məhdudlaşdıqca, bu, daha böyük fəsadlara gətirib çıxarır. Getdikcə bu fəsadları daha ciddi şəkildə hiss etməyə başlayacağıq. Çünki bu imkanların məhdudlaşması idxal əməliyyatlarını çətinləşdirir. İdxal əməliyyatlarını daha da bahalaşdırır, malların, məhsulların qiymətinin daha da artmasına səbəb olur. Bir müddət sonra hətta bəzi məhsullar üzrə qıtlığın da yaranması müşahidə olunacaq. Rəsmi məzənnə isə ilin sonuna çox güman ki, 1,77-1,78 səviyyəsində olacaq. Sonuncu hərracda dollar 1,77 manata yaxınlaşdı. Növbəti hərracda rəsmi məzənnə 1,78-ə qədər olacaq. Bu cür ili tamamlayacaq. Rəsmi məzənnənin artıq iqtisadi əhəmiyyəti itib. Çünki heç olmasa, əvvəllər sərbəst şəkildə valyutaya çıxış imkanları olanda banklar üzərinə 4 faiz qoymaqla, rəsmi məzənnədən bir qədər baha dollar satırdılar. İndi isə artıq dollara ümumiyyətlə çıxış imkanları məhdudlaşıb. Gələn il də bu prosesin daha da sürətlənməsi ehtimalı var. Çünki bazar oyunçularının sayı məhduddur, gələn il bir Neft Fondu valyuta bazarında valyuta satmalı olacaq. Çünki Mərkəzi Bank bu ilin martından valyuta satışlarını dayandırıb. Valyuta ehtiyatları kritik həddə idi, 4 milyard dollara enib ki, Mərkəzi Bank onu saxlamağı düşünür. Mərkəzi Bankın ehtiyatlarının sıfırlanması Azərbaycanın borc danışıqlarında əlini zəiflədir. Mərkəzi Bankın ehtiyatları kredit-borc danışıqlarında bir zəmanət rolunu oynayır. Ona görə də Mərkəzi Bank uzun müddət valyuta bazarında iştirakçı kimi olmayacaq. Ancaq Neft Fondu valyuta satmağa başlayacaq. Gələn il də Neft Fondunun 4 milyard dollardan bir az çox miqdarda satış imkanı var. Bazara cəmi 4 milyard vəsait çıxara bilər. Qalan ehtiyacın hansı mənbələr hesabına ödəniləcəyi qaranlıq qalır. Çünki ilkin hesablamalara görə, Azərbaycanın aylıq valyuta tələbatı 900 milyon- 1 milyard arası dəyişir. İl ərzində ortalama 11-12 milyard dollar lazımdır. Gələn il bizim bu qədər valyutaya ehtiyacımız olacaq. Amma ancaq Neft Fondu tərəfindən satıla biləcək 4 milyard dolların bazara çıxması ehtimalı var. Gələn il manat üçün çox ağır bir il olacaq. Ümid onadır ki, əgər neft qiymətlərində çox kəskin artım olarsa, o zaman valyuta bazarında müəyyən sabitlik yarana bilər. Mərkəzi Bankın da artıq valyuta bazarına əlavə valyuta çıxarmaq imkanları ola bilər. Bu ehtimal da çox aşağıdır. Çünki ən yaxşı halda, neftin qiymətləri gələn il də indiki səviyyələrdə- 45-55 dollar civarında qalacaq. Hətta bundan aşağı düşmə ehtimalı artma ehtimalından daha çoxdur. Bunları nəzərə alsaq, gələn il artıq manat- dollar münasibətlərində növbəti rekordları görə bilərik. Məzənnənin daha sürətlə aşağı düşməsi, manatın daha sürətlə ucuzlaşmasının şahidi ola bilərik. Gələn ilin əvvəlində bu prosesin ilkin işartıları olacaq".

**Ekspertin sözlərinə görə, başqa bir ssenari də mümkündür:** "Ola bilər, ilin əvvəlində Neft Fondu hərraclara öz ehtiyatlarını nəzərə alaraq gələn aylarda satmalı olduğu valyutanı daha tez hərraca çıxarsın. Yanvarın əvvəlində ajiotajı aşağı salmaq üçün bu addım atıla bilər. Amma bu, sonradan davamlı olmadıqca, bir neçə həftə sonra daha böyük ajiotajın yaranmasına səbəb ola bilər. Valyuta bazarında daha ciddi proseslərə səbəb ola bilər. Çünki növbəti aylarda Neft Fondu məcburən daha az valyuta satmalı olacaq ki, bu da ajiotajı sürətlə artıracaq. Ona görə də manatın hansı səviyyədə dayanacağını söyləmək çox çətindir. Amma ilkin olaraq onu demək mümkündür ki, gələn il manatın dəyərdən düşməsinin sürəti artacaq. Daha sürətlə manatın ucuzlaşmasının şahidi olacağıq".

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 290 (6611) 28 dekabr 2016



# “Əli Əhmədov hakimiyyətin planlarını bilir”-politoloq

## Baş nazir müavininin “Azərbaycan yeni bir sıçrayışa hazırlaşır” fikrinə politoloqlar şərh verdi

**Baş nazirin müavini, YAP-ın icra katibi Əli Əhmədov “Azərbaycan” qəzetində dərc olunan “Lider və onun ölkəsi” sərlövhəli məqaləsində ötən illərdə Azərbaycanın iqtisadi və siyasi durumunu təhlil etməklə bərabər, gələcəklə də bağlı pozitiv proqnozlar verib. Konkret olaraq Ə. Əhmədov informasiya xarakterli fikrlərində bildirib ki, Azərbaycan növbəti böyük dəyişiklik yolunun astanasındadır: “Azərbaycan yeni bir sıçrayışa hazırlaşır”.**

Milli Məclisdə son büdcə müzakirələri zamanı çıxış edən məmurların qarşıdan gələn ildə ölkə iqtisadiyyatı ilə bağlı bədbin proqnozlarından fərqli olaraq baş nazirin müavininin optimizmi suallar yaradıb.

Məlumdur ki, son günlər Azərbaycanı mövcud böhranlı vəziyyətdən xilas etməklə bağlı ölkə başçısı tərəfindən ciddi sənədlər imzalanıb, hökumətin qarşısında konkret vəzifələr, öhdəliklər qoyulub. Bəzi ekspertlər hesab edirlər ki, baş nazirin müavini konkret olaraq bu islahatlara diqqət çəkib və yeni planların bir növ üstüörtülü anonsunu verib.

Həmin planlar konkret olaraq nələrdir?

**Yeri gəlmişkən, “Yeni Müsavat”a müsahibəsində ekspert Mehman Əliyev də növbəti illə bağlı fikirlərini bildirib:** “2016-cı ildə dəyişikliklərə müəyyən hazırlıq prosesi getdi. Bu da referendumla bağlıdır. Hansı ki, İlham Əliyev demişdi ki, altı aydan sonra referendumdan irəli gələn məsələlər işə salınacaq. Bu da təxminən mart ayına düşür. Bir də elan olunan islahatların ”Yol xəritəsi" var. Bu da onu göstərir ki, 2017-ci ildə islahatlara başlanılmasına hazırlıq gedir. Hesab edirəm ki, institusional dəyişikliklər, bir də iqtisadiyyatda və cəmiyyətdə dəyişikliklər olacaq. Bu, böyük bir prosesdir. 2017-ci ildə bunun əsasları qoyulacaq".

Onu da qeyd edək ki, Azərbaycanda islahatlar proqramını ABŞ-ın “Makkenze” şirkəti hazırlayırdı. Bu şirkət Qazaxıstanda da antiböhran layihəsini hazırlayıb və bəhs etdiyimiz ölkənin hökuməti bu layihəni qəbul edib. Şirkətin islahatlarında əsas nüanslardan biri məhkəmə sistemində islahatların aparılmasıdır.

**Mövzu ilə bağlı “Yeni Müsavat”a danışan politoloq Mübariz Əhmədoğlu bildirib ki, Əli Əhmədov ölkənin vacib siyasi postlarında olmağının məsuliyyətini dərk edərək danışır:**

“Onun fikirlərinə məhz məsuliyyət prizmasından yanaşsaq, hesab edirəm ki, söylədiklərində xalqın həm gələcək inkişafı baxımından, həm də indiki vəziyyəti ilə bağlı müəyyən faktlar və yol göstərmələr var. Nəzərə almaq lazımdır ki, indiki dövrlərdə problemlərə yanaşma optimist olmalıdır. Bütün başqa variantlar özünü doğrultmur. Müasir dövrdə, ancaq tənqidlərlə uğur əldə etmək mümkün deyil. Diqqət edin ki, Qazaxıstan və Türkmənistanın nefti də, qazı da bizdən bir neçə dəfə çoxdur. Lakin Qazaxıstanda benzin məhsullarının qıtlığı yarandı. Türkmənistanda isə təxminən 4 ay öncə qazın qiyməti qaldırıldı. Eləcə də ilin əvvəlindən əhaliyə olan güzəştlər də ləğv edilib. Bu iki dövləti ona görə qeyd edirəm ki, bunlar dünya bazarına bizdən də bir neçə dəfə çox neft və qaz məhsulu çıxarırlar. Qlobal iqtisadi böhran elə bir problemdir ki, bunun mahiyyətini heç kim başa düşmür”.

**Politoloq Rusiya, Türkiyə və İranda baş verən iqtisadi proseslərə də toxunaraq bildirib ki, orada da vəziyyət ürəkaçan deyil:** “İranın üzərindən sanksiya götürülsə də orada iqtisadiyyat irəli yox, geri gedir. Yəni bu cür paradoksal vəziyyətlər yaranıb. Qlobal böhranın mahiyyəti açıqlanmalıdır. Bizdə əgər hökumət günahkardırsa, bəs digər ölkələrdə kimlər günahkardır? Avropada da son zamanlar iqtisadi uğur əldə edən dövlət yoxdur. Sadəcə olaraq, məsələyə dar dairədən yanaşmaq lazım deyil. 2016-cı ildə Dünya Bankı və digər bu kimi qurumlar da dəfələrlə Azərbaycanın iqtisadi sahədə gördüyü tədbirləri yüksək dəyərləndirib. İlin əvvəlində ölkə prezidenti də vəziyyətlə bağlı xeyli iclaslar keçirib, qərarlar qəbul edib. Qlobal maliyyə böhranı dərinləşdikcə isə strateji ”yol xəritələri" ortaya qoyuldu. Hesab edirəm ki, bunlar artıq Azərbaycanın neftdən asılı olmayaraq iqtisadiyyatının qurulmasında önəmli rol oynayacaq. Əli Əhmədov da məhz bu planları bilir və diqqəti də bu məsələlərə yönəldir."

❑ Əli RAİS



# Eldar Quliyevin “Azərittifaq”ı ləğv olunacaqmı?

## SSRİ-nin yadigarı olan qurumun varlığı ilə yoxluğu bilinmir; **Qubad İbadoğlu:** “İttifaqın fəaliyyətinin zəif olmasına səbəb...”

**“Azərittifaq”-Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı adlanan qurumun varlığı ilə yoxluğu bilinmir. SSRİ dövründə kənd təsərrüfatı mallarının bazara çıxarılması ilə məşğul olan ittifaqın müstəqillik illərində fəaliyyəti demək olar ki, sıfıra düşüb.**

Ekspertlər bildirirlər ki, ölkə iqtisadi böhran yaşadığı indiki şəraitdə belə bir qurumun saxlanılmasına ehtiyac yoxdur. Təsadüfi deyil ki, son illər, ümumiyyətlə, “Azərittifaq” hansısa bir fəaliyyəti ilə bağlı gündəmə gəlməyib, adı mətbuatda belə keçməyib. Bu da artıq ittifaqın kağız üzərində mövcudluğu anlamına gəlir.

1993-cü ildən quruma rəhbərlik edən deputat Eldar Quliyevin ittifaqın adının yaşamasında böyük rolunun olduğu şübhəsizdir. Səlahiyyətlərindən istifadə edən deputat “Azərittifaq” adının tarixə keçməməsi üçün çarpışır. Bütün bunlara baxmayaraq, qurumun tezliklə ya fəaliyyətini dayandıracağı, ya da ləğv ediləcəyi deyilir.

**ADR hərəkatının rəhbəri, iqtisadçı ekspert Qubad İbadoğlu bildirdi ki, qurum özü buraxılması barədə qərar verə bilər:** "“Azərittifaq”ın fəaliyyəti kooperativ amillərlə əlaqədardır. Müxtəlif sahələrdə fəaliyyət göstərirlər. Düşünmürəm ki, dövlət bu qurumu bağlamalıdır. Qurumun fəaliyyətindən narazılıq onu bağlamaq üçün əsas yaratmır. İttifaqın özünün şurası, idarə heyəti var. Qurumun buraxılması barədə onların özləri qərar verə bilərlər. “Azərittifaq” Şurasının nəzdində Azərbaycan Kooperasiya Universiteti, Bakı Biznes və Kooperasiya Kolleci var. İndi bilmirəm ki, bu kollec fəaliyyət göstərir, ya yox. Kolleclərin fəaliyyətlərində Təhsil Nazirliyinin xətti ilə müəyyən dəyişikliklər olub. Bu dəyişikliklərin ittifaqın nəzdində olan kolleclərə şamil olunub-olunmaması ilə bağlı nəsə demək çətindir. Bu qurum sovet dövründə çox əhəmiyyətli qurum olub. O dövrdə “Azərittifaq”ın şəbəkəsi çox geniş idi. Bu qurum dövlətin nəzarətində deyil, amma tam müstəqil də deyil. Adı müstəqil olsa da, özü dövlətdən asılı fəaliyyət göstərir. Bu qurumun, açığı, fəaliyyətini izləmirəm, ona görə də tam məlumatlı deyiləm. Bildiyim odur ki, sovet dövründən bizə miras qalmış qurumdur. Kooperativlərin birliyindən söhbət gedirsə, bu, dövlət qurumu hesab olunmalıdır. İttifaqın qurultayı qərar qəbul edib fəaliyyətini dayandıra da bilər. İttifaq üzvləri əgər istəsələr, qurumun fəaliyyətini yenidən qurarlar. Bu hüquq yalnız “Azərittifaq”ın üzvlərinə və qurultaya məxsusdur. Bu, ictimai əsaslı qurumdur, dövlət qurumu deyil ki... Dövlət büdcəsindən heç nə almırlar. Düşünürəm ki, ittifaqın fəaliyyətinin zəif olmasına səbəb ölkə iqtisadiyyatında kooperasiyanın rolunun az olmasıdır, yəni kooperativlərin sayı azdır. Əvvəl geniş şəbəkədə demək olar ki, bütün Azərbaycanı əhatə edirdilər. İndinin özündə də bu qurumun tərkibində müxtəlif regionlarda fəaliyyət göstərən kooperativlər var. Amma fəal deyillər. Sovet dövründə mərkəzləşmiş sistem var idi. İndi isə sağlam rəqabətdə “Azərittifaq”ın fəaliyyətinin zəif olmasının günahını qurumun özündə axtarmaq lazımdır".

❑ Cavanşir ABBASLI

# Partiyalarda ilsonu tədbirləri

## İlə Elçibəyin məzarı önündə yekun vuranlar var

**2016-cı ilin son günlərini yaşayırıq. Siyasi təşkilatların ilin yekunu və son günləri üçün hansısa tədbirlərinin olub-olmadığını araşdırdıq.**

**VİP sədri Əli Əliyev** bildirdi ki, ilin yekunu olaraq partiyasının ən böyük tədbiri artıq bir neçə gün öncə keçirilib: “Dekabrın 24-də gənclərlə görüşümüz oldu. 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı ilin son iclası Siyasi Şura səviyyəsində olacaq. İnşallah onu da keçirib ilə yekun vuracağıq, gələn ilin də ilkin müzakirələrini aparacağıq”.

**Yeni AXCP-nin sədri Razi Nurullayev bildirdi ki, ilin son tədbiri kimi 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə dekabrın 27-də Əbülfəz Elçibəyin məzarını ziyarət ediblər:** “Bayram tədbirimizi Əbülfəz bəyin məzarı önündə keçirdik. 2017-ci ilə olan gözləntilərimizi və mesajlarımızı da verdik”.

**AĞ Partiyanın sədri Tural Abbaslı isə bildirdi ki, ilin yekunu ilə bağlı xüsusi bir tədbir keçirməyi nəzərdə tutmurlar:** “Ancaq AĞ Partiya bizim də təmsil olunduğumuz ”Milli Təşəbbüs Qrupu" bugünlərdə Milli Həmrəylik günüylə əlaqədar böyük tədbir təşkil edəcək. Bundan başqa, bugünlərdə AĞ Partiya Gənclər Qollarının təsis iclasını keçirdik və birləşmiş müxalifətlə birlikdə iqtisadi böhranla bağlı tədbirimiz oldu. Bugünlərdə partiyanın Məclisinin iclasını da keçirərək ilin yekunlarını müzakirə etməyi düşünürük".

**BAXCP sədrinin müavini Elçin Mirzəbəyli isə dedi ki, dekabrın 27-də partiyanın qərargahında ilin yekunu ilə bağlı rəmzi bir tədbir keçirilib:** “Partiya sədrinin iştirakı ilə icra strukturlarında, MNTK-da və İdarə Heyətində təmsil olunan şəxslər bir masa arxasına toplaşaraq, həm ilin yekunu ilə bağlı, həm də qarşıdan gələn ildə həyata keçirəcəyimiz tədbirlərlə bağlı müzakirə aparıldı, qarşıdakı günlərdəki bayramlar qeyd edildi”.

**Ümid Partiyasının sədr müavini Tamilla Qulami isə qeyd etdi ki, ilin yekunu ilə bağlı tədbirləri artıq keçirilib:** “24 dekabrda Ümid Partiyası ilin yekunları ilə bağlı müşavirə, partiyanın Ali Məclisi növbəti sessiyasını keçirib. Partiyanın Mərkəzi Qərargahında rayon təşkilatlarının sədrlərinin iştirakı ilə cari ilin yekunları ilə bağlı genişləndirilmiş müşavirə keçirilib. Müşavirədə Ümid Partiyasının sədri İqbal Ağazadə ölkədə və regiondakı ictimai-siyasi vəziyyət, əhalinin həyat səviyyəsinin günü-gündən ağırlaşmasının, kəskin qiymət artımlarının səbəbləri və mövcud böhrandan çıxış yolları, habelə 2016-cı ilin yekunları ilə bağlı məruzə ilə çıxış edib, qarşıda duran vəzifələr və görüləcək işlər barədə müzakirələr oldu, görüləcək işlərlə bağlı rayon təşkilat sədrlərinə tapşırıq və tövsiyələr verilib. Sonda Ali Məclisin növbəti sessiyası keçirilib”.

**AMİP katibi Əli Orucov bildirdi ki, ilin sonu olduğu üçün hər hansı siyasi təbirin keçirilməsi gözlənilmir. Amma bu həftə AMİP Siyasi Şurasının genişləndirilmiş iclasında il ərzində görülmüş işlərin müzakirəsi və qiymətləndirilməsi olacaq:** “Bu il üçün qarşıya qoyduğumuz işlərin nə dərəcədə yerinə yetirilib-yetirilməməsi ilə bağlı müzakirələr aparılacaq. Həmçinin gələn ilin 6 ayı üçün partiyanın müxtəlif sahələr üzrə iş planının müzakirə olunub qəbul ediləcəyi də gözlənilir. Sonda Siyasi Şura üzvlərinin və fəallarımızın iştirakı ilə bayram tədbiri də keçiriləcək. Təbii ki, ənənəvi olaraq AMİP-in Azərbaycan xalqına təbrik mesajı da olacaq”.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 290 (6611) 28 dekabr 2016

**Deputat Astan Şahverdiyev son açıqlamaları ilə 70 illik ömründə düşmənin vurmadığı zərbəni məhz özü özünə vurdu. Ancaq təkcə özünəmi? Düzdür, artıq "səhvimi başa düşürəm, ölkə daxilində, xaricdə yaşayan bütün azərbaycanlılardan, xalqımdan üzr istəyirəm", deyib, İntizam komissiyasından xəbərdarlıq da alıb...**

# Məclisin Astanı, Azərbaycanın "daşdan pul çıxaran" oğulları və "Piter Elçin"in zəngi...

## Deputat Astan Şahverdiyevi bağışlamaq olarmı - dünya azərbaycanlılarının qarşısındakı sual...

Ancaq bu "səhvi" yeniyetmə, ya gənc birisi etsəydi, anlamaq olardı. Yoxsa Milli Məclisin deputatı, professor, ahıl yaşlı birisi... Astan Şahverdiyev gərək biləydi ki, indiki dönəmdə bizim xalqın birliyə daha çox ehtiyacı var. Ən azı onun 15 ildir mandatını daşıdığı Cəbrayılın, eləcə də bütün Qarabağın işğaldan azad olunması üçün bu, çox vacibdir!

Uzun illər boyu erməni diasporu bir kabusa dönüb dünya üçün. Ancaq Azərbaycanın müstəqillik illərində xaricdə yaşayan soydaşlarımızın fəaliyyəti sübut etdi ki, ermənilərin qarşısına çıxmaq, onların cavabını vermək üçün kifayət qədər imkanlarımız var. Biz nəhəng potensiala malikik, diasporumuzun sayı, güneyli soydaşlarımızı da hesablasaq, dünyadakı ermənilərin sayından iki-üç dəfə çoxdur. Yetər ki, təşəbbüskarlara dəstək verək.

Hollandiyada bir soydaşımız yaşayır, İlhan Aşkın. Neçə ildir ki, erməni diasporu ilə tək döyüşür. Hətta Xocalı qatillərini lənətlədiyi üçün ermənilər onu məhkəməyə verib, indi də proses davam edir. Avropada, Amerikada, elə postsovet məkanında nə qədər fəal azərbaycanlı var ki, ürəyi hər zaman Azərbaycanla bir döyünür, sevincimizə sevinir, kədərimizə üzülürlər.

Xaricdə, konkret olaraq Rusiyada yaşayan azərbaycanlılar bir çox çətinliklərə, əzab-əziyyətlərə qatlaşaraq özlərinə müəyyən şərait qurublar, görəsən, deputatın bundan xəbəri yoxdurmu? Çörək ardınca Rusiyaya gedənlərimizin sayı isə 2 milyonu çoxdan ötüb. Bu adamlar Azərbaycanın həm də işsizlik yükünü özləri ilə aparıblar, əlləri çörəyə çatıb, burdakı doğmalarına da əl uzadırlar. Belələrinə necə "otxod" demək olar?

Bəli, Rusiyada yaşayan soydaşlarımızın xeyli hissəsi dükan-bazarlarda çalışır. Onların bir çoxu illərlə ailə-uşağını, ata-anasını görməkdən belə məhrumdurlar. Rusiyada ağır şərtlər altında işləyirlər ki, ailələrinə çörək qazansınlar. "Daşdan pul çıxaran" bu insanların çoxu ölkəmizin ən enerjili, ən zəhmətkeş təbəqəsinin nümayəndələridir. Astan Şahverdiyev demişdi ki, Rusiyadakı azərbaycanlıları "araşdırıb". Elədirsə, ötən illər ərzində niyə bircə dəfə də olsun skinhedlərin hücumuna məruz qalan Rusiyadakı azərbaycanlılardan bəhs etməyib? Dazbaşlar onlarla azərbaycanlını öldürüb, minlərlə soydaşımızın malını, pulunu əlindən alıb, yandırılan bazarlarda bu xalqın nümayəndələrinin milyardları batıb.

Konkret statistikaya müraciət edək, qoy professor görsün ki, araşdırmanı necə aparırlar:

Rusiya Mərkəzi Bankının məlumatına görə, təkcə 2014-cü ildə Rusiyadan Azərbaycana 1 milyard 221 mln. ABŞ dolları (!) göndərilib. Bu, hələ rəsmi rəqəmdir, üzərinə azərbaycanlıların dost-tanışı vasitəsilə göndərdiklərini də gəlsək, daha böyük məbləğ edir.

Ötən il isə şimal qonşumuzdan Azərbaycana pulköçürmələri 1,9 dəfə azalıb. Bu il pulköçürmələri kəskin azalıb, hətta oradakı azərbaycanlılar özlərini dolandırmaq üçün çalışır. Rusiyadakı böhran azərbaycanlılara da ciddi zərbə vurdu. Ancaq böhrana qədər Rusiyada yaşayan həmvətənlərimiz, soydaşlarımız Azərbaycana çox böyük dəstək verirdilər. Dağlıq Qarabaş uğrunda gedən vətən müharibəsi illərində onların dəstəyi xüsusilə gözəçarpan idi. Daha sonralar da onların göndərdiyi pullar hesabına nə qədər ailələr dolanışığını qurundu. Rusiyadakı azərbaycanlılar, belə demək mümkünsə, Azərbaycanın qeyri-neft sektorunun təmsilçiləri idi. Təəssüf ki, son hadisələr bu



Astan Şahverdiyev

sektorun da durumunu ağırlaşdırıb. Əks təqdirdə, bu gün bu sayda vətəndaş banklardan asılı vəziyyətdə qalmazdı. Deputatın həqarət etdiyi yüz minlər ordusu dövlətə və millətə böyük fayda verirdi və indi də verir.

Fayda yalnız bundan ibarət deyil. Dünən mühacirətə yaxşı iş tapmaq üçün xeyli sayda gedənlərimiz var ki, artıq bu gün səsləri mühüm tribunalardan gəlir. Artıq azərbaycanlılar yaşadıqları ölkələrdə ortaya mövqe qoyurlar, siyasi partiyalarda təmsil olunurlar, mandat daşıyırlar, hakimiyyət kürsülərinə təyinat alırlar. Bunlar sıradan bir məsələ deyil. Zatən, Azərbaycan dövlətinin də əsas məqsədi xaricdə yaşayan azərbaycanlıların layiq olduqları ünvanlarda təmsil olunmaları və onların həmin ölkələrdə aparıcı mövqeyə sahiblənməsidir. Ermənilər bir əsrdən artıqdır məhz bu siyasətin sayəsində uğurlar qazanıblar. Yəni azərbaycanlılar daha çörək uğrunda mübarizə aparmır, imkanları daxilində həm də Azərbaycan uğrunda mücadilə verirlər, anti-Azərbaycan qərarların qəbuluna əngəl olurlar.

Astan Şahverdiyev bu ilin yayında, elə Milli Məclislə üzbəüzdəki "Alov qüllələri"ndə Dünya Azərbaycanlılarının Qurultayında iştirak edən azərbaycanlılardan bir-ikisi ilə həmsöhbət olsaydı, öz millətinin mənsublarının haqda belə aşağılayıcı ifadələr işlətməzdi. O qədər zəkalı, intellektli insanlarımız var ki... Daha bir neçə il keçəcək, bu şəxslər dünyanın aparıcı qurumlarında, ölkələrində yüksək mövqe qazanacaqlar.

Çox yaxşı ki, Azərbaycan dövləti də onların işini stimullaşdırmağa çalışır, təkliflərini dinləyir, diaspora-dövlət əlaqələrinin möhkəmlənməsi üçün mexanizmləri işləyib həyata keçirməyə çalışır. İş adamından tutmuş, aliminə, tələbəsinə qədər hər bir azərbaycanlı həm də bizim böyük sərvətimizdir, baxmayaraq ki, onlar xaricdə yaşayırlar. Bu gün xaricdə təhsil alan minlərlə azərbaycanlı tələbə sabah ölkəmizə qayıdıb ölkəmizə fayda verməkdə davam edəcəklər. Şübhəm yoxdur ki, onların arasında mandat qazanan gənclərimiz də olacaq, ancaq heç vaxt xaricdəki insanlarımızı aşağılamayacaqlar.

Ancaq Astan Şahverdiyev elə vəziyyət yaratdı ki, ona hətta "Sankt-Peterburqdan "Piter Elçin" zəng etdi, üzrxahlıq tələbini qoydu. Görürsünüzmü, "Piter Elçin" başqa dünyanın adamıdır, ancaq azərbaycanlının təhqir olunmasına dərhal reaksiya verdi. Necə ki, Rövşən Lənkəranski son mənzilə on minlərlə insanın müşayiəti ilə yola salındı. Çünki kriminal aləmin nümayəndələri də Rusiyadakı azərbaycanlılara qiymət verib hər zaman, millətini aşağılamayıblar, onları qoruyublar.

Təsəvvür edin, prezident Dünya Azərbaycanlılarının Həmrəylik Günü ilə bağlı xalqı təbrik edir, sıx birləşməyə, anti-Azərbaycan dairələrin təxribatçı əməllərinə qarşı prinsipial mübarizə aparmağa çağırır, ancaq elə eyni vaxtda hakim partiyanın deputatı Rusiyada yaşayan azərbaycanlıları aşağılayan ifadələr səsləndirir. Bu, həm də dövlətin, onun prezidentinin kursuna xəyanətdir, deyilmi?

Şübhə etmirəm ki, prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun "Azərbaycan prezidentinin və dövlətinin xaricdə yaşayan soydaşlarımızla bağlı mövqeyi birmənalıdır və bu yanaşmada həmvətənlərimizin fəaliyyətinə yüksək qiymət öz əksini tapıb" açıqlaması olmasaydı, A.Şahverdiyev bir gün əvvəlki kimi, hələ də nə dediyinin fərqində olmayacaqdı. Hər halda, dövlət rəsmisinin məsələyə reaksiyası onu ayıltdı və "mən niyə üzr istəməliyəm ki" deyən Şahverdiyev az sonra bütün xalqdan üzr istədi.

Bilmirəm, xaricdə yaşayan azərbaycanlılar onun üzrxahlığını qəbul edəcək, ya yox. Amma gərək hər kəs xalqın yüz minlərlə oğul-qızını təhqir etməyin yolverilməz olduğunu birdəfəlik anlasın, Astan müəllimin səhvini təkrar eləməsin. Rusiyanın hansısa bir ermənipərəst nümayəndəsinin azərbaycanlılar haqqında işlətdiyi "bazar adamı" ifadəsinin qarşılığında adlar çəkmək olardı... Rusiya Dövlət Atom Gəmiqayırma Mərkəzinin prezidenti, "Rusiyanın qəhrəmanı" Davud Paşayevdən, böyük sənətkar Müslüm Maqomayevə, filosof Heydər Camala qədər onlarla adlar çəkib beləsini susdurmaq mümkün idi. Heç olmasa Vahid Ələkbərov, Telman İsmayılov, Fərhad Əhmədov, Araz Ağalarovun Rusiya büdcəsinə ödədikləri milyardları xatırlatmaq olardı.

**Lakin daha gecdir. Bundan sonra ermənilər azərbaycanlı deputatın dediklərinə istinad edəcəklər Rusiya azərbaycanlıları barədə danışanda. Çox təəssüf...**

❑ **Elşad PAŞASOY**

# Elektron alış-satış sıradan çıxa bilər

## Qiymətlər artsa, vətəndaşların onlayn ticarətə marağı itəcək




**Vergilər Məcəlləsinə edilən son dəyişikliklə onlayn ticarətə də vergi tətbiq olunmağa başlanılıb. Dəyişikliklərdə onlayn sifarişlə alınan mallara görə əlavə dəyər vergisi (ƏDV) tətbiq ediləcəyi göstərilib. Vergilər Nazirliyində hesab edirlər ki, bu cür yanaşma yerli istehsalçılar və ticarətçilərə qarşı ədalətli addım olacaq və hər sifariş ediləcək malın dəyərinin 18%-i ƏDV kimi tutulacaq.**

Hazırda elektron ticarətin vergiyə cəlb edilməsi texnologiyası ilə bağlı xarici təcrübə öyrənilir.

Bundan sonra onlayn sifariş əsasında xaricdən alınan hər bir əşyanın qiymətindən əlavə, dövlət büdcəsinə o malın dəyərinin 18 faizi məbləğində ödəmə ediləcək. Yəni müştərinin ödəmə kartından, avtomatik olaraq 18 faiz ƏDV tutulacaq.

Rəsmilər bunu yerli istehsalçı və ticarətçilərə qarşı ədalətli yanaşma kimi qiymətləndirsələr də, ekspertlər belə hesab etmir. Onların sözlərinə görə, xaricdən alınan əksər mallar Azərbaycanda istehsal olunmadığından burada yerli sahibkarı qorumaqdan söhbət gedə bilməz.

Ekspertlər hesab edir ki, Azərbaycanda alternativi olmayan məhsulların xaricdən alınmasına tətbiq olunan 18 % vergini ləğv etmək lazımdır.

**İqtisadçı ekspert Qubad İbadoğlu "Yeni Müsavat"a açıqlamasında dedi ki, indiki iqtisadi şəraitdə elektron ticarəti önəmli hesab edir:** "Xüsusilə nəzərə almaq lazımdır ki, ölkədə nağdsız hesablaşmaların genişləndirilməsi ilə bağlı prezidentin fərmanı var. Hesab edirəm ki, bu gün vergi və gömrük siyasəti elektron ticarətin stimullaşdırılmasına xidmət etməlidir, onu təşviq etməlidir. Vergi elə formalaşdırılmalıdır ki, əks təsir göstərməsin. Bu, bütövlükdə həmin sektorun vəziyyətini ağırlaşdıra bilər. Bu sahənin inkişafı Azərbaycanda elektron ticarətin genişləndirilməsi, nağdsız dövriyyənin artması, həmçinin bank-maliyyə əməliyyatlarının etibarlığının artırılması üçün çox önəmlidir. İnkişafa yeni başlayan bu sektorun yüksək vergilərlə boğulması doğru deyil".

**Qubad İbadoğlu elektron ticarətə vergi tətbiq olunmasının texnologiyası ilə bağlı diqqətli olmağı tövsiyə etdi:** "Mən Azərbaycanda elektron ticarətə verginin hansı formada tətbiq olunacağı, metodologiyası barədə məlumatlı deyiləm. Yəqin ki, müvafiq təlimatlar Vergilər Nazirliyi tərəfindən işlənəcək. Bu sahədə fəaliyyət göstərən şirkətlərin uçot qeydiyyatı, həmçinin hesabatlılıqla bağlı problemlər var. Bunu elə təşkil etmək lazımdır ki, iki vergi tətbiqinə gətirib çıxartmasın. Bu yolla məhsulun da bahalaşmasına səbəb olmasın. Qiymətlər artsa, artıq vətəndaşlar elektron ticarətə marağın itirəcək".

**Ekspertin sözlərinə görə, elektron ticarətə vergi tətbiqi xarici ölkələrdə də mövcuddur:** "Əksər ölkələrdə belə əməliyyatlar vergidən kənarda qalmır. Lakin ayrı-ayrı ölkələrdə müxtəlif yanaşmalar var. Azərbaycan kimi inkişaf etməkdə olan ölkələrlə, inkişaf etmiş ölkələrdə vəziyyət fərqlidir. Çünki inkişaf etmiş ölkələrdə elektron ticarət ümumilikdə ticarətin böyük bir hissəsini əhatə edir. Bizdə isə bu sahə hələ yeni formalaşır. Bu nəzərə alınmalıdır".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 290 (6611) 28 dekabr 2016

# İlin top 10 hadisəsi - Azərbaycan təlatümlü bir ilə girir

## Terrordan yan ötsə də, ölkə üçün 2016 daha gərgin keçdi, apreldə toplum "məğlubiyyət sindromu"nu sındırdı, ancaq sosial-iqtisadi durum pisləşməkdə davam etdi; dövlət və cəmiyyətə qarşı yeni təhdidlər ortaya çıxdı...

**Bir neçə günə 2016-cı il tarixə qovuşacaq. Əfsuslar olsun ki, başa çatmaqda olan il də əsas problemimiz olan Dağlıq Qarabağ məsələsinin həllində real irəliləyiş ili olmadı. Hərçənd apreldə buna müəyyən ümidlər yaranmışdı. İstənilən halda, bu il həm Azərbaycanın daxilində, həm də onun ətrafında yaşanan bir sıra taleyüklü, ziddiyyətli, təhlükəli və qanlı olaylarla yadda qaldı. Yaşanan irili-xırdalı bu olayların hamısı Azərbaycan ictimai rəyində, ictimai-siyasi proseslərin axarında özünəməxsus izlər qoydu.**




Azərbaycana terror təhlükəsi 2016-da da öz aktuallığını saxladı. "Çiçəklənmə" dönəmi yaşayan beynəlxalq terror bu il də böyük ölçüdə ölkəmizdən yan keçdi. Azərbaycan Qərb, yoxsa Rusiya strateji seçimi məsələsində ənənəvi balans kursunu davam etdirdi - hərgah, şimala daha loyal göründü. Xüsusən də qardaş Türkiyə, Pakistan və İsraillə strateji əlaqələr dərinləşdi. 2015-ci ildə həmçinin milli valyutamız olan manat ABŞ dolları qarşısında ciddi şəkildə zəiflədi, dəyər itirdi. Nəticələr bəllidir.

Lakin dünyada və ətrafımızda yaşanan təlatümlü və kritik olaylara rəğmən, Azərbaycan öz daxili müvazinətini qoruyub saxlaya bildi. Sabitlik pozulmadı, ölkədə böyük sosial-ictimai kataklizmlər qeydə alınmadı. Bununla belə, xalqımız bu il də ağır, bəzən isə faciəvi hadisələrə tuş gəldi. Yaşanan olayların bəzilərinin siyasi-iqtisadi əks-sədası böyük ehtimalla, 2017-ci ildə eşidiləcək.

İlin ən əhəmiyyətli hadisələri sırasında elələri oldu ki, onları hakimiyyətin, ümumən cəmiyyətin və ölkənin nəfinə yazmaq olar. Hərtərəfli analizdən sonra seçimimizi ilin "Top-10" ən mühüm hadisəsi üzərində saxladıq. Onları xronoloji ardıcıllıqla diqqətə çatdırırıq.

### 4 günlük aprel müharibəsi

Bu ilin aprelində işğalçı 22 illik atəşkəs dövründə ilk dəfə Azərbaycan ordusundan qəfil və ağır zərbə yedi, sanballı dərs aldı. 2000 hektarlıq strateji əhəmiyyətli ərazimiz azad edildi. Düşmən ilk dəfə anladı ki, Azərbaycan silah-sursatı vitrinə qoymaq üçün almır və sülhə gəlməzsə, Azərbaycanın öz torpaqlarını hərbi yolla azad edə bilər. Ən önəmlisi, işğalçının məğlubedilməzlik mifi dağıdıldı, Azərbaycan xalqı isə məğlubiyyət sindromunu qırdı. İqtidarlı-müxalifətli toplum 22 ildə ilk dəfə qələbə naminə yumruq kimi birləşdi.

Təəssüf ki, sülh danışıqlarında yenə sıçrayış olmadı. Çünki Ermənistanın əsas hamisi Rusiya bunu istəmədi. O üzdən hərbi balansı bərpa etmək və Ermənistanın özünü daha güvənli hiss etməsi üçün öz satellitinə yeni müasir hərbi sistemlər, "İsgəndər" operativ-taktiki raket sistemi verdi, işğalçı ölkənin hava məkanını öz nəzarətinə götürdü, onunla ortaq hərbi qruplaşma yaratdı. ABŞ isə işğalçının özünü bir qədər də güvəndə hiss eləməsi üçün ona kəşfiyyat-müşahidə avadanlıqları ötürdü.

### Prezidentlərin Bakı sammiti

Yayda Bakıda Azərbaycan, Rusiya və İran prezidentləri arasında keçirilən görüş də ilin yadda qalan olaylarından sayıla bilər. Görüşün yekunu olaraq, verilən



bəyannamə, imzalanan sənədlər orta və uzun müddətli perspektivdə Azərbaycanın regional oyunçu və tranzit ölkə kimi yerini təsbit etdi, ölkəmizin region üçün, Rusiya və İran üçün önəmini nümayiş etdirdi.

Həmçinin işğalçı ölkənin iqtisadi-nəqliyyat təcridini sürətləndirəcək mühüm gəlişmələr qeydə alındı. O üzdən erməni tərəfi Bakı sammitini çox narahatlıqla izlədi.

### Konstitusiya dəyişiklikləri üzrə referendum

Sentyabrda keçirilən konstitusiya dəyişiklikləri üzrə referendum ölkədə və dünyada birmənalı qarşılanmadı. Daha çox hakimiyyətin öz siyasi ömrünü uzatmağa hesablanmış növbəti siyasi gedişi kimi qiymətləndirildi. Hərçənd onun praktik nəticələri hələ yoxdur. Yəqin ki, üzümüzə gələn il(lər)də ilk nəticələri görəcəyik. Məhz o zaman referendumun nəticələrinə dəqiq qiymət vermək mümkün olacaq.

### Manatın daha da dəyərdən düşməsi, güzəranın pisləşməsi

Milli valyutamız olan manat əfsus ki, bu il də ABŞ dolları qarşısında ciddi dəyər itirməkdə davam elədi. Bu isə təbii ki, özünü birbaşa əhalinin dolanışığında göstərdi. Çünki Azərbaycan hələ də idxaldan güclü şəkildə asılı olan ölkədir. Düzdür, bu asılılığı azaltmaq üçün ölkə rəhbəri bir sıra mühüm sərəncamlar, sənədlər imzaladı, "Yol xəritələri"ni təsdiqlədi.

Ancaq hələ ki bu sahədə durum ağır olaraq qalır. Mühüm səbəblərdən biri ölkədə korrupsiya və monopoliyanın miqyasının hələ də böyük olması, ərzaq təhlükəsizliyimizi təhdid etməsi, ölkəyə sərmayə axınını əngəlləməsidir. Bütövlükdə manatla bağlı kritik proses Azərbaycanda həqiqi islahatçı komandanın iş başına gəlməsinin vacibliyini heç vaxt olmadığı qədər çılpaqlığı ilə ortaya qoydu.

### Qalmaqallı məhkəmələr-bank işi, Akif Çovdarov, "Rabitə çetesi"

İl sözsüz ki, həm də hay-küylü məhkəmə prosesləri ilə yadda qaldı. Söhbət bank işi ilə bağlı gedən prosesdən, Akif Çovdarovun məhkəmə istintaqından və əlbəttə ki, "Rabitə çetesi"nin ifşasından gedir. Məhkəmə prosesləri və bu proseslərdə səslənən ifadələr, edilən müdhiş etiraflar və açıqlamalar, faktlar məmur qatının ən yüksək təbəqəsində korrupsiyanın nə dərəcədə kök saldığını qabarıq şəkildə ortaya qoydu. Ölkədə korrupsiyanın səviyyəsinin faktiki, dövlətin təhlükəsizliyini də təhdid etdiyini üzə çıxardı.

Sual da budur ki, hələ yekunlaşmayan və növbəti ilə adlayan bu məhkəmə prosesləri digərlərinə ibrət dərsi olacaqmı, korrupsiyanın kökünün kəsilməsinə kömək edəcəkmi? Əfsus ki, siyasi müşahidəçilər bu məsələdə nikbin deyillər. Çünki hesab edirlər ki, məlum həbslər və məhkəmə prosesləri "aysberqin" yalnız görünən hissəsinə aiddir. O sırada "MNT işi" bu il də yekunlaşmadı. Onun real nəticələri və həmin nəticələrin miqyasını, ölkə ictimai-siyasi həyatına nələr vəd elədiyini yəqin ki, qarşıdakı ildə biləcəyik.

### Ermənilərin Bakıya gəlişi və «Sülh platforması»

İlin mühüm olaylarından biri də 22 illik atəşkəs dövründə ilk dəfə Sərkisyan rejiminin təqib elədiyi 3 erməni ictimai-siyasi xadiminin Bakıya gələrək, burada mətbuat konfransı keçirməsi, Xocalı soyqırımı abidəsini ziyarət eləməsi və Qarabağ probleminin ərazi bütövlüyümüz çərçivəsində həllini nəzərdə tutan «Sülh platforması»nı imzalamaları oldu.

Bu, heç şübhəsiz ki, Ermənistanda hakim Qarabağ klanının təbliğat maşınına vurulan güclü zərbədir.

Platformaya qoşulan ermənilərin sayı artıq 7-yə çatıb. Yəqin ki, gələn il sıra daha sürətlə artacaq. Ən önəmlisi onların arasında Dağlıq Qarabağ ermənisi dı var, Ermənistan ermənisi və diaspor üzvləri də.

### Roma papasının Bakı səfəri

Roma papasının Bakı səfəri Ermənistana edilən səfərin kompensasiyası kimi başa düşülsə də, əslində Azərbaycan üçün ən azından Qarabağ məsələsi kontekstində mühüm önəm daşıyır. Ona görə ki, katolik dünyada əsas söz sahibi olan Vatikan başçısı Azərbaycan xalqının başqa dinlərə və millətlərə qarşı nə dərəcədə tolerant olduğuna öz gözləri ilə əminlik hasil etdi. Belə bir ölkədə guya erməni azlığın diskriminasiyaya məruz qala biləcəyi haqda iddialar puç kimi göründü.

### İşıq və qazın bahalaşması və yeni bahalaşma dalğası

İl bitmək üzrə ikən Tarif Şurasının elektrik enerjisi və təbii qazın istifadəsi üçün diferensial qiymətlər müəyyən etməsi cəmiyyətdə sosial narazılığı daha da artırdı. Az sonra prezident İlham Əliyev işıq və qaz üçün kvotaları qaldırsa da, müstəqil iqtisadçi ekspertlərə görə, ərzaq və qeyri-ərzaq məhsullarında Tarif Şurasının qərarı gələn ilin əvvəllərində özünü qabarıq göstərəcək - əlbəttə ki, yeni bahalaşma dalğası şəklində. Bir çox ekspertlər hesab edir ki, qərar ən çox orta biznesin inkişafına ciddi zərbə vuracaq.

### İsrail baş nazirinin Bakı səfəri

İsrail baş naziri Benyamin Netanyahunun 18 ildən sonra, dekabrda reallaşan Bakı səfəri Azərbaycan-İsrail münasibətlərinin, xüsusən də hərbi sahədə strateji əlaqələrimizin daha yüksək səviyyəyə keçdiyinin təsdiqi oldu. Silah ticarətində dövriyyə 5 milyarda çatdı ki, bu da Rusiyanı üstələdi.

Ümumiyyətlə, son illər ərzində Azərbaycan ordusunda rus silahlarının payı başqa ölkələrin, o sırada İsrailin, Pakistanın xeyrinə aşağı düşüb ki, bu da hərbi analitiklərə görə, yaxşı göstəricidir. Çünki Rusiyadan asılılığın azalması deməkdir. Bir sözlə, Netanyahunun Bakı səfəri Azərbaycanın dostlarını sevindirdi, düşmənlər isə həmişəki kimi, pəjmürdə və pis oldular. Eyni zamanda onlar Azərbaycanın yalqız olmadığı haqda növbəti xəbərdarlıq mesajı aldılar.

### "Neft Daşları"nda növbəti böyük faciə - 10 itkin

Nə sirdirsə, bu ilin dekabrında da Xəzərdə neftçi faciəsi yaşandı. Yada salaq ki, keçən ilin dekabrında "Günəşli" neft-qaz yatağının 10 saylı platformasında baş vermiş yanğın nəticəsində 8 neftçi həlak olmuşdu, 22-si isə hələ də itkin düşmüş sayılır. Hərçənd, onların sağ qalmasına inam çoxdan itib.

Bu il isə "Neft Daşları"ndakı qəza nəticəsində 10 neftçimiz itkin düşdü. Onlardan hələ ki yalnız birinin cəsədini tapmaq mümkün olub. Azərbaycanın müasir neft-qaz sənayesi tarixində baş verən və hökumətə düşünmək üçün ciddi əsaslar verən ikinci belə bir böyük faciə onsuz da gərgin olan cəmiyyəti yenidən üzüntüyə və sarsıntıya ürcah etdi.

Əlavə edək ki, Bakıda ilk dəfə "Formula -1" yarışlarının keçirilməsi, Pakistanın baş naziri Məhəmməd Nəvaz Şərifin Azərbaycan səfəri də 2016-cı ilin mühüm hadisələri hesab oluna bilər. Konkret olaraq, "Formula-1" yarışı ölkəmiz üçün növbəti önəmli idman hadisəsi olmaqla yanaşı, həm də Azərbaycanın dünyada daha da tanınmasına və onun pozitiv imicinin möhkəmlənməsinə məxsusi töhfə verdi. Həmçinin, zorən düşdüyü müharibə vəziyyətinə rəğmən, ölkəmizdə böyük idman yarışlarının keçirilməsi üçün həmişə optimal mühitin və təhlükəsizlik zəmanətinin mövcud olduğunun təsdiqinə çevrildi.

❑ Siyasət şöbəsi

# Lukaşenkodan İlham Əliyevə mühüm jest

**Xəbər verildiyi kimi, dekabrın 26-da Sankt-Peterburqda Avrasiya Birliyinin sammiti və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT - ona "Rus NATO"su da deyilir) sessiyası keçirilib. Sessiyada KTMT-nin 6 üzv dövlətindən yalnız Belarusun prezidenti Aleksandr Lukaşenko naməlum səbəbdən iştirak etməyib.**




## Sərkisyanın Peterburq fiaskosu - Azərbaycan amili öndə

### Düşmən ölkənin başçısı Rusiyadan pərt döndü; "Rus NATO"su yenə erməniyə etibar edilmədi; bu dəfə Belarus işğalçı ölkənin planını pozdu; Minsk Lapşini də Bakıya təhvil verərsə...

Həmin gün KTMT Şurasının iclasında yeni baş katib seçilməli idi. Lakin iclasda Belarus nümayəndə heyətinin iştirak etməməsi səbəbindən bu, baş tutmayıb. KTMT baş katibi Nikolay Bordyuja jurnalistlərə bildirib ki, şuranın sessiyasının iclasında Belarus nümayəndə heyətinin olmaması üzündən yeni baş katib təyinatı məsələsinin təxirə salınmasına qərar verilib. Onun sözlərinə görə, Rusiya, Ermənistan, Qırğızıstan, Qazaxıstan və Tacikistan liderləri bu məsələni 2017-ci ilin aprel ayına qədər ertələmək haqda razılığa gəliblər.

***

Beləcə, bu dəfə Belarusun sayəsində ermənilərin arzusu gerçəkləşməyib. Bu nəticə əslində gözlənilən idi. Ötən sayımızda yazdığımız kimi, çünki söhbət, sadəcə olaraq, baş katibin rotasiya qaydasında dəyişdirilməsindən getmir. Onu Azərbaycanla müharibə vəziyyətində, Türkiyə ilə isə gərgin vəziyyətdə olan Ermənistanın nümayəndəsinin tuta biləcəyindən gedir. Bu isə Bakı-Moskva, Moskva-Ankara münasibətlərinin hazırkı dövründə kifayət qədər həssas, ikitərəfli əlaqələr üçün əlavə psixoloji diskomfort yaradacaq məqamdır.

Bir daha yada salaq ki, Bordyujanın sələfi hələ ötən ilin dekabrında dəqiqləşməli, yerinə erməni general gəlməli idi. Ancaq o vaxt məsələ gündəlikdən çıxarıldı. Daha sonra aprel döyüşləri səbəbindən İrəvanda planlaşdırılan toplantı da bir müddət gecikdi. Çünki konkret olaraq, Qazaxıstan və onun prezidenti Nursultan Nazarbayevin bunda maraqlı olmadığı üzə çıxdı. Doğrudur, o zaman Belarus və Rusiya prezidentləri də Ermənistana getməkdən imtina etdilər. Nəticədə toplantı az sonra Moskvada reallaşdı. Lakin baş katib N.Bordyuja yenə yerində qaldı.

Nəhayət, bu ilin oktyabrında KTMT dövlət başçıları İrəvanda bir araya gəldilər. Amma yenə Nazarbayevsiz. Qazax lideri bu dəfə xəstəlik səbəbi ilə işğalçı ölkənin paytaxtına getmədi. Nəticədə ermənilərin arzusu yenə gözündə qaldı. Yerli analitiklər isə İrəvan sammitini Serj Sərkisyan üçün fiasko kimi qiymətləndirdilər.

***

Peterburq sammiti KTMT daxilində bu məsələ ilə bağlı konsensusun olmadığını bir daha üzə çıxardı. Əlbəttə ki, Azərbaycan amili yenə öz sözünü dedi. Nəticə etibarilə işğalçı ölkənin prezidenti Serj Sərkisyanın üçüncü cəhdi də fiasko oldu. Düşmən ölkə başçısı Rusiyadan pərt döndü.

Təsadüfi deyil ki, əksər erməni analitiklər "Rus NATO"su daxilində Azərbaycanın dostunun daha çox olduğunu qeyd edirlər, nəinki Ermənistanın. Peterburq sammiti ərəfəsində isə həmin analitiklərdən biri - Akop Badalyan beləcə də yazmışdı ki, KTMT-də iki blok var - "türk-müsəlman bloku" və "xristian bloku". Onun sözlərinə görə, Ermənistan ikincidədir.

Ancaq heç "xristian bloku"nda da Ermənistanı hamı sevmir. Rusiyanın yalançı erməni sevgisi bəlli. Belarusu isə xüsusi vurğulamaq lazım gəlir. O Belarus ki, aprel döyüşləri zamanı Azərbaycanın mövqeyini, ərazi bütövlüyünü dəstəklədiyini bəyan eləmiş, buna görə Belarusun İrəvandakı səfiri Ermənistan XİN-ə çağırılmışdı. Daha sonra - KTMT-nin İrəvandakı oktyabr toplantısı barədə prezident Aleksandr Lukaşenko aşağılayıcı ifadələr işlətmişdi...

***

Azərbaycanın həm də silah tərəfdaşı olan Belarusla bağlı bir mühüm detal da var. Məsələ ondadır ki, Peterburq sammitindən az öncə bu ölkədə Azərbaycanın rəsmi sorğusu əsasında Dağlıq Qarabağa qanunsuz səfərlər edərək separatçı rejimi təbliğ edən Aleksandr Lapşin saxlanılıb. Onun Bakıya ekstradisiyası gözlənilir.

Bu fakt Azərbaycana növbəti xoş məram jesti olmaqla yanaşı, sözsüz ki, İrəvanı ciddi şəkildə qıcıqlandıran addımdır - təsadüfi deyil ki, məsələ Ermənistan XİN səviyyəsində belə ciddi narahatlıq doğurub. Həm də o səbəbə ki, bu, ilk belə presedentdir və Azərbaycanda mühakimə olunarsa, Lapşini 7 ilədək həbs cəzası gözləyir.

Lukaşenko Peterburq sammitinin ardınca Lapşini də Bakıya təhvil verərsə, bu, heç şübhəsiz ki, işğalçı ölkənin Qarabağla bağlı maraqlarına növbəti zərbə olacaq.

❑ **Analitik xidmət**

# ABŞ 2015-də silah satışı üzrə dünya liderliyini qoruyub

### Keçən ilin ən böyük silah alıcıları Qətər və Misir olub

**ABŞ 2015-ci ildə təxminən 40 milyard dollar dəyərində silah satmaqla silah satışı üzrə dünya liderliyini qoruyub. "Report" "The New York Times" nəşrinə istinadən xəbər verir ki, bu barədə Konqresin Araşdırma Xidmətinin hesabatında deyilir.**



Siyahıda ikinci yerdə Fransa qərarlaşıb. Avropanın bu ölkəsi 2015-ci ildə təxminən 15 milyard dollar dəyərində silah satmağa müvəffəq olub.

Rusiyanın 2015-ci ildə silah satışından əldə etdiyi gəlirlər deməl olar, 2014-cü ilin səviyyəsində qalıb: 11,2 milyard dollardan 11,1 milyard dollara düşüb.

Məlumatda bildirilir ki, keçən ilin ən böyük silah alıcıları Qətər və Misir olub: ərəb ölkələri 17 milyard dollar məbləğində silah alıb. Səudiyyə Ərəbistanı isə 8 milyard dollarlıq silah alışı ilə siyahıda üçüncü olub.

Eyni zamanda "The New York Times" ümumilikdə dünya silah ticarətinin həcminin 2015-ci ildə 89 milyard dollardan (2014-cü il) 80 milyard dollara düşdüyünü qeyd edib.

# Məzhəb savaşının azarkeşləri



**Xalid KAZIMLI**

**Sırağagün sosial şəbəkədəki səhifəmin daxili poçtuna "Samedov" soyadlı bir nəfər mesaj yazmışdı, hər gün musavat.com saytında 250 xəbərin birindən şikayətçi olduğunu dedi. Araşdırdıq, məlum oldu ki, həmvətənimizin narahat olduğu xəbər Suriyada döyüşən iranmeylli "Həşdi Şabi" qrupuna dairdir. Heç demə, soydaşımızı həmin qrupun xəbərdə "terrorçu" kimi qeyd olunması narahat edir.**

Əslində qəribəydi, öz ölkəmizdə bu qədər problem, dərd-sər olduğu halda bir gənc həmvətənimizi üçüncü ölkənin maliyyələşdirdiyi və dördüncü ölkədə vuruşan silahlı dəstənin reputasiyası nədən narahat etsin?

Bunu ondan soruşduq, cavab verdi ki, öz ölkəsinin azadlığı üçün vuruşan bir silahlı dəstənin yanlış adlandırılması onu çox narahat edir. Bu şəxs o "məşum səhvi" aradan qaldırmaq üçün redaksiyada daha səlahiyyətli adamla da danışmaq istədiyini bildirdi və məlum oldu ki, bu, onun üçün az qala həyat məsələsi qədər vacibdir.

Bu cür adamlar ölkəmizdə, oxucularımız arasında çoxdur. Yaxın Şərqdəki çoxsaylı münaqişə ocaqları barədə yazılan məqalələrin, çox vaxt isə beynəlxalq xəbər agentliklərindən götürülmüş xəbər və yazıların altına yazılan şərhlərdən də onların narahat simasını görmək mümkündür.

Biri yazır ki, siz nə haqla İŞİD-ə qarşı yazılar verirsiniz, onlar cihad edirlər. Başqası yazır ki, "Hizbullah" suriyalı şiələrin xilaskarıdır, amma sizdə başqa cür yazılıb. Bir başqası İsraili İrana, o birisi Türkiyəni Səudiyyə Ərəbistanına, bəziləri isə hamını hamıya qatır.

Ölkəmizdəki heç bir problem bu cür oxucuları Yaxın Şərqdə gedən məzhəb savaşı qədər maraqlandırmır, narahat etmir.

Bunu artıq danmaq olmaz. İraqda, Suriyada gedən müharibənin adı məzhəb savaşıdır, sünni-şiə müharibəsidir və bu savaşı virtual aləmdə ölkəmizdə də aparanlar var.

Regionda və ölkəmizdə bu real və virtual savaşa qatılanlar fərqində deyillər ki, onlar supergüclərin illərlə hazırlayıb həyata keçirdiyi və artıq alovlanmaqda olan qanlı münaqişədə tərəfə, bundan da daha pisi, alətə çevriliblər.

Yaxın Şərqdə, müsəlman dünyasında məzhəb savaşının qızışdırılmasının böyük bir layihə olduğu və bu layihənin bənd-bənd reallaşdırıldığı artıq sirr deyil. Bu barədə amerikalı kəşfiyyatçının hələ 2008-ci ildə yazdığı və sonradan filmlərə mövzu olan kitabında da bildirilir.

Həmin ktab "The Devil we know" ("Tanıdımız şeytan") adlanır və müəllifi Robert Booker Baerdir.

Bir vaxtlar Fransada, Hindistanda, Livanda, Sudanda, Tunisdə, Tacikistanda, İraqda işləyən və fransızca, almanca, farsca, rusca, ərəbcə, tacikcə ana dilindəki kimi danışan, hətta İranda yaşayan azsaylı bəlucların da dilini bilən kəşfiyyatçı Baer həmin kitabında yazıb: "Yeni Yaxın Şərq qurmağın yeganə yolu bölgədə geniş miqyaslı sünni-şiə savaşını tətikləməkdən keçir. Niyə biz amerikalılar ölməliyik ki? Buraxaq, müsəlmanlar öz aralarında bir-birini öldürsünlər".

Türkiyədə çıxan "Sözçü" qəzetinin yazarı Yılmaz Özdil dünənki yazısında bu adamın İraqda kürdlərdən ibarət hərbi dəstələr topladığını və uzun illər təlim keçərək gələcək döyüşlərə hazırladığını yazıb.

Bir vaxtlar geniş müzakirə mövzusu olan "Yeni Yaxın Şərq" layihəsində sünni-şiə savaşı da nəzərdə tutulub, ölkələrdə vətəndaş müharibələri salınması da, bütün bu qarmaşıqlıqdan sonra bölgədə yeni dövlətin yaranması da. İndilikdə yaradılması uğrunda qanlı savaşlar gedən dövlətin adı Kürdüstandır. Son əlli ilin ən sadiq hərbi-siyasi müttəfiqləri olan ABŞ-la Türkiyənin arasının açılmasının əsas səbəbi də elə budur.

Suriyada, İraqda vuruşan, onlara azarkeşlik edən tərəflərə baxanda mənzərə tam aydın görünür. Onları vuruşduran dövlətlərin səfi-sırası da bəllidir.

Budur, artıq neçə ildir ki, İraqda ABŞ əsgəri ölmür. Çünki onların böyük bir hissəsi İraqdan çıxarılıb, qalanlar da artıq özlərinin, öz diplomat və mütəxəssislərinin təhlükəsizliyini qoruyur, hərbi əməliyyatlara qarışmırlar. Əvəzində keçmiş iraqlılar üzbəüz səngərlərə girib döyüşürlər. Hamısı iraqlıdır, hamısı müsəlmandır, amma onlar məzhəb və hakimiyyət savaşı aparırlar.

Bizimkilər də təbliğata uyub tərəf tutublar, Yəməndə hutilərə qahmar çıxanlar Suriyada "Həşdi Şabi" dəstəsini dəstəkləyir, Suriyada Hələbi əldən vermək istəyənlər isə İraqda Bağdadı tutmaq istəyir.



# Müsəlman həmrəyliyi və təhsil oyunları

Zamin HACI
zaminhaci@mail.ru

**Gənclər və idman naziri Azad Rəhimov 2017-ci ildə ölkəmizdə keçiriləcək İslam həmrəyliyi oyunlarına 100 milyon dollar xərc çəkdiyimizi açıqlayıb. 60 milyon bu il gedib, 40 milyon gələn il gedəcək. Ya da tərsinə idi, dəqiq xatırlamıram.**

Mən islam həmrəyliyi deyilən şeyi dünyada indiyə qədər kim görüb, hardadır bu həmrəylik ki, bütün müsəlman dövlətləri bir-birini qırmaqla məşğuldur, İranın prezidenti isə təzəcə Ermənistandan qayıdıb - belə sualları hələ qırağa qoyuram. Eybi yoxdur, adamın, dövlətin pulu çox olanda lap Marsiançiklər və Başqa Kosmosdan Gələnlər Arasında Otüstü Hokkey Olimpiadası da qayırar. Bunun nə ziyanı var, insanlar süpürləşən, daş qaldıran, turnikdə meymunluq edən cürbəcür tiplərə baxıb sevinirlər, ürəkləri açılır, dərd-sər yaddan çıxır, hətta bəziləri birinci yerə verilən çoxlu pulu görüb uşağı idman zalına yazdırır, qulağını sındırır ki, böyüyüb adam olsun, medal alsın, QAİ-də işə düzəlsin və sairə. Şəxsən mən özüm sinxron üzgüçülərin, bədii gimnastların yarışlarına baxmağı çox sevirəm, saatlarla oturub baxaram, doymaram. Ümid edirəm bizdə bu idman növlərinə babat maya qoyulacaqdır.

Ancaq dediyim kimi, pulun olanda... Necə deyərlər, varını verən utanmaz. Məsələ budur ki, indi bizim dövlətçiliyin kasıb vaxtıdır. Hökumət xalqa kəmərləri sıxmağı tapşırıbdır. Manat günbəgün çezir, insanlar bezir, polis müxalifətçiləri gəzir. *(Qafiyə üçün yazdım, yoxsa müxalifət kimin nəyinə lazımdır? Bizdə hamı özünə görə iqtidardır)*. Bax, indi 2017-ci ilin büdcəsindən ali təhsilə ayrılan xərcin miqdarını yazıram: 41 milyon 380 min manat. Yaxud elm xərcləri 125 milyon manatdır. Bunları dollara çevirəndə lap az edir. Yəni gələnilki büdcəmizdə ali təhsil və elmə ayrılan cəmi pul İslam oyunlarına ayrılan puldan az edir.

Bir dövlət ki, ondan ötrü hansısa çarşablı zənənin gəlib ox atması, hansısa saqqallı ərəbin başqa bir əfqanla tatami üzərində süpürləşməsi öz övladlarının keyfiyyətli təhsil almasından, öz alimlərinin araşdırmalarından vacibdir, belə dövlətə nə ad qoyasan? "Yol əhvalatı" kinosunda deyilən kimi: "qrabitel".

Adam belə rəqəmləri görəndə yanıb tökülür, bir də baxırsan istinin təsirindən qaz xətti partlayıbdır. Hüquq-mühafizə orqanları gəlirlər, hərəsi bir metrdən-arşından götürüb partlayan borunun enini-zadını ölçür, biri qazın tərkibini yoxlayır, ayrısı təxribat izləri gəzir və sairə. Ancaq heç kəsin ağlına gəlmir ki, o qaz kəmərində partlayan bədbəxt azərbaycanlıların ürəyidir.

Dünən xəbər lentində gördüm: 25 dekabrda Bakıda "Odlar yurdum Azərbaycan" adlı konsert qayırıblar, telekanalizasiya və toyxana ulduzlarımız cürbəcür mahnılar zəvzəyiblər. Bunu görən, evində elektrik və qaz olmayan, soyuqdan donan azərbaycanlı necə yanmasın? Əcəb odlar yurdudur... İsinmədik istisinə, kor olduq tüstüsünə - bu yerdə deyiblər.

Ən pisi odur ki, bizim bu halımız artıq dünyaya əyandır. Yapistlərin dediyi o "dünya şöhrətini" pis mənada qazanmışıq. Bugünlərdə Avropa dövlətlərindən viza almaqda çətinlik yaşanırmış. Avropalılar zəhmətkeşlərimizə viza vermir, bunu isə açıq-aydın belə əsaslandırırlar: "Azərbaycanın hazırkı sosial-iqtisadi vəziyyəti miqrasiya etməyə tam əsas yaradır, bu üzdən sizə viza vermirik". Finlandiya, Norveç, Fransa səfirliklərindən belə cavablar alanlar varmış.

Açıq yazsaq, avropalılar indi bizə suriyalılar, əfqanlar, iraqlılar kimi baxırlar. Buyurun. 23 illik "yeni Azərbaycan" siyasətinin ölkəmizi gətirdiyi nöqtə budur. Ukrayna və Gürcüstan vətəndaşlarına vizanı ümumiyyətlə ləğv etməyə hazırlaşan Avropa azərbaycanlılara viza vermək istəmir. Bir o qalıb ki, Türkiyədə rezin, üfürmə qayıqlara doluşub yunan adaları üzərindən Avropaya miqrasiya etməyə çalışaq. Bəlkə beləleri indi də var.

Çünki oldun dəyirmançı, çağır gəlsin, dən, Koroğlu... Yəqin elə suriyalılar və əfqanlarla bir sıraya düşdüyümüzdən yapistlər də İslam həmrəyliyi oyunları düzəldirlər. Oynayaq da. Nə olsun "musiqi o tərəfdən gəlir"? Ordan eşit, burdan oyna.

# "Trampın Rusiya haqda dediyi isti sözlərə aldanmaq lazım deyil" - Eldar Namazov

## **Azərbaycanın tanınmış politoloqu:** "Məhz indi yeni dünya düzəninin formalaşması dövrü başlayır"; "Tramp hesab edir ki, Rusiya ilə açıq savaşda kəllə-kəlləyə gəlmək lazım deyil"

**Uzun illər mətbuatın ən fəal müsahiblərindən olan politoloq, siyasi xadim Eldar Namazov son dönəmlər səssizliyini qoruyur. Səhhətinə görə ciddi müalicə süreci keçən Eldar bəy üçün aktiv siyasət də məhz bu səbəbdən arxa plana keçib. Amma o, ara-sıra "Yeni Müsavat"a müsahibə verir. Dekabrın 23-də 60 yaşının tamam olması politoloqla daha bir müsahibəyə yaxşı fürsət yaratdı.**

*Onunla müsahibənin ikinci hissəsini təqdim edirik:*

*R.Arifoğlu:*

***- Bu mənada Azərbaycanın seçilən olmasının, İsrailin ona xüsusi münasibət göstərməsinin səbəbi nədir? Bizi özünə təhlükə hesab etmir, yoxsa başqa səbəb var ...?***

- Bir neçə il bundan əvvəl mən ABŞ-ın yəhudi təşkilatlarının rəhbərləri ilə söhbət edirdim. Orda söhbət düşdü ki, İsrailin Azərbaycana xüsusi münasibəti var, Azərbaycanda da yəhudilərə qarşı xüsusi münasibət var. Mən də zarafatla Çörçilin bir sözünü improvizə edib dedim ki, Azərbaycanda yəhudilərə ona görə yaxşı münasibət var ki, biz onları özümüzdən ağıllı saymırıq (gülür). Hər halda, bu əməkdaşlıq mövcuddur və öz faydasını verir. Biz dövlətləri qiymətləndirəndə onları bir neçə parametr üzrə qiymətləndiririk. Mənimçün ABŞ bir dövlət kimi çox böyük önəm daşıyır. Həmişə ABŞ dövlətinə rəğbətlə yanaşmışam. Buna səbəb ABŞ-da yaradılan siyasi, hüquqi, iqtisadi sistemdir. O ki qaldı xarici siyasətə, xarici siyasət demokratik və ya avtoritar ola bilməz. Xarici siyasət milli maraqlara söykənir. Xarici siyasətdə mənim çox hörmət etdiyim ABŞ çox ciddi səhvlərə yol verir. Azərbaycan öz xarici siyasətini quranda ilk növbədə milli maraqlarını güdməlidir.

*R.Arifoğlu:*

***- İranı incitmək milli maraqlara uyğundurmu?***

- Mən sizə bir misal gətirim. 1994-95-ci illərdə Ermənistanın sabiq prezidenti Levon ter Petrosyan mətbuata açıqlama verdi ki, əgər İran Ermənistanla sərhədini heç olmasa bir aylıq bağlasa, Ermənistan dövləti rəsmən çökəcək. Çünki Türkiyə artıq sərhədləri bağlamışdı. Azərbaycan da həmçinin. O biri tərəfdən Gürcüstan öz ərazisi üzərindən Ermənistana Rusiya ilə əlaqələr qurmağa imkan yaratmırdı. İran-Ermənistan sərhədi işğalçı dövlət üçün həyat yolu olmuşdu. Petrosyan açıq deyirdi ki, İran olmasaydı, bizim dövlətimiz çökəcəkdi. O vasitə ilə biz dövlətimizi saxlaya bildik. Əgər İran da Türkiyə kimi o vaxt sərhədləri bağlasaydı və desəydi ki, ay ermənilər, qoşunlarınızı Azərbaycan ərazisindən çəkin, yoxsa bu sərhədlər açılmayacaq, o zaman elə 90-cı illərin sonlarında bu konflikt sonlanardı.





### "ABŞ cəmiyyəti hiss edirdi ki, dünya dəyişir, yeni çağırışlar var və Tramp bunu tutdu"

*R.Arifoğlu:*

***- İran bunu zamanında niyə etmədi? Pakistan kimi, Türkiyə kimi bizim tərəfi niyə tutmadı?***

- Bu haqda İran diplomatları ilə müxtəlif səviyyələrdə danışmışdıq. Mənim yadımdadır ki, Heydər Əliyev İranın ən yüksək səviyyədəki şəxslərindən tutmuş, xarici işlər nazirinə kimi, hər kəsə bu sualı verirdi. Konkret bir cavab yox idi. Sadəcə, ümumi şəkildə deyilirdi ki, burda müxtəlif beynəlxalq məsələlər, milli maraqlar var. Azərbaycan öz ərazilərini qorumaq, işğal olunmuş əraziləri ni qaytarmaq, 1 milyon qaçqını nı öz torpaqlarına qaytarmaq istəyir. Bu məsələdə sizdən böyük zəhmət tələb olunmur. Sadəcə, işğal qurtarana qədər Ermənistanla əməkdaşlığı dayandırmaq lazım idi. Ona görə də Azərbaycan indi o torpaqları işğaldan azad etmək üçün İsraillə də əməkdaşlıq edə bilər, başqa ölkələrlə də. Bu, bizim milli maraqlarımız istiqamətindədir. Biz çox istərdik ki, bizə yaxın olan qonşularımız bu məsələdə prinsipial mövqe tutub bizə yardım etsinlər. Əgər hansısa səbəbdən bunu etmirlərsə, heç olmasa Azərbaycan özü başqa üsullarla öz torpaqlarını azad etməyə çalışırsa, buna mane olmaları düzgün deyil.

### "1994-95-ci illərdə Ermənistanın sabiq prezidenti Levon ter Petrosyan mətbuata açıqlama verərkən dedi ki, əgər İran Ermənistanla sərhədini heç olmasa bir aylıq bağlasa, Ermənistan dövləti rəsmən çökəcək"

*R.Arifoğlu:*

***- Dünyada yeni dövrün başlandığı ilə bağlı iddialar var. Həmçinin Dağlıq Qarabağla, Azərbaycanla bağlı. Bunu ümumi şəkildə, hipotez kimi söyləyənlər də var, dəyişimi Trampın hakimiyyətə başlayacağı dövrə bağlayanlar da...***

- Mən siyasətə gəlmədən əvvəl tarixçi idim, tarix elmini öyrənirdim, siyasətə başlayanda tarix elmləri namizədi idim... Bu, mənə müasir dönəmdəki ictimai-siyasi prosesləri təhlil etməyə imkan verir. Çünki mən onların tarixi köklərini bilirəm, yüz il əvvəl bu proseslərin necə getdiyini müqayisə edə bilirəm. Tarix spiralvari inkişaf edir. Bir çox şeylər təkrarlanır. Çünki siyasəti müəyyənləşdirən bəzi dəyişməz amillər var. Ölkənin ərazisi, əhalisi, dini... Bunlar illər boyu dəyişmir və bir çox hallarda 100 il bundan əvvəlki hadisələr sanki təkrarlanır... Birinci Dünya müharibəsi qurtarandan və Almaniya məğlub olandan sonra hamı elə bilirdi ki, daha müharibə bitdi, yeni dünya düzəni yarandı. O yeni dünya düzənində Almaniyanın yeri yox idi, çünki Almaniya sındırılmış durumda idi, qadağalar qoyulmuşdu və sair. Amma təqribən 10 il sonra Almaniya dirçəlməyə başladı və beynəlxalq xəritədə, oyun meydançasında öz yerini tələb etdi. Faşizm meydana gəldi, Almaniya gücləndi... Və məlum oldu ki, bu, yeni dünya düzəni yox, keçid idi. Bu keçid də uğurlu olmadı. Almaniyanın həmin xəritədə yeri olmadığından bu, güclənmiş Almaniya ilə toqquşmaya və İkinci Dünya müharibəsinə gətirdi... Bu soyuq müharibə bitəndən, SSRİ dağılandan, Rusiya müstəqil dövlət olandan sonra da insanlara elə gəlirdi ki, yeni dünya düzəni yaranıb. Amma o yeni dünya düzənində də Rusiyanın yeri o qədər görünmürdü. Rusiya çox zəif halda idi, ABŞ-dan, Avropadan asılı vəziyyətdə idi. Bu ölkələr kredit verməsəydilər, maaşları vermək durumunda deyildi.

*S.Telmanqızı:*

***- Bəs tarixi faktlar indi sizə nəyi xatırladır? Spiralvari inkişaf dediyiniz təsbit nəyi göstərir? Hazırda hansı tarixi prosesin təkrarı yaşanır?***

- Hesab edin ki, Birinci Dünya müharibəsindən sonrakı dönəmi yaşayırıq... İndi də 10 il keçdi, Rusiya dirçəlməyə başladı, soyuq müharibə bitəndən sonra dünya düzənindəki yerini qəbul etmir, çünki yeri görünmürdü. İndi də məlum olur ki, yaşadıqlarımız da yeni dünya düzəni deyilmiş, keçid dövrü imiş. Məhz indi yeni dünya düzəninin formalaşması dövrü başlayır. Orada dördbucaq - ABŞ, Rusiya, Çin və Avropa Birliyinin hansı yeri tutacağı hələ bəlli deyil. Söhbət təkcə Trampdan getmir. Burda söhbət böyük güclərin nisbətindən gedir.

*R.Arifoğlu:*

***- Onu anladım. Amma mən təklif edirəm ki, biz prosesləri Trampın üzərində fokuslaşdıraq. Çünki Amerikada kimin prezident olması, Ağ Evdə hansı partiyanın təmsilçisinin yaşaması dünya düzəninə təsir edir. O cümlədən Azərbaycanda demokratiya ideologiyasının təmsilçilərinə, ənənəvi müxalifətə də təsir buraxır...***

- Əvvəla, Birinci Dünya müharibəsindən sonra yaranmış durumla indikini müqayisə edəndə nəyi nəzərdə tuturdum? Trampın seçilməsi Amerika cəmiyyətində məhz həmin təhlükələrin hiss olunması ilə bağlıdır. Hillari Klinton ənənəvi siyasi elitanın nümayəndəsi idi. O seçilsəydi, son 10 ildə yürüdülən siyasət davam edəcəkdi. Amma ABŞ cəmiyyəti hiss edirdi ki, dünya dəyişir, yeni çağırışlar var. Tramp bunu tutdu. Trampın mesajı çox konkret oldu. Dedi ki, ABŞ üçün ən böyük təhlükə Çindir. Çin həm iqtisadi, həm hərbi cəhətdən güclənir...

*R.Arifoğlu:*

***- Mən sizin gətirdiyiniz paralellərdən belə başa düşdüm ki, siz Amerikanı Almaniya, Hitleri də Trampla müqayisə edirsiz...***

- Xeyr... *(davam edir)* Tramp dedi ki, bizim əsas rəqibimiz Çindir. İqtisadi və hərbi cəhətlərdən addım-addım bizim statusumuza yaxınlaşır. Amma bu siyasi elitanın başı Rusiya ilə haqq-hesab çürütməyə qarışıb və Putinlə də bacarmırlar. Əgər siz Putinlə bacarmırsınızsa, Çinlə necə bacaracaqsınız? Putinlə Çin birləşəndən sonra da xüsusən... Yəni hərbi sənaye kompleksinin tam dəstəyi bu seçkilərdə Trampa getdi ki, o da ABŞ-da çox böyük qüvvədir. Ona görə də yeni dünya düzəninin formalaşması zərurəti Amerikada hiss olundu. Onlar anladılar ki, ənənəvi xarici siyasət konsepsiyası ilə - kiçik Buş, sonra Obama dövründə aparılan siyasətlə bu yeni çağırışlara cavab vermək mümkün olmayacaq... İndi gələk konkret Trampın gəlişinə. Bilirsiz, SSRİ ilə Amerika savaş aparanda SSRİ möhkəm idi. Nə vaxt ki, Amerikada Reyqanın dövründə Qorbaçovu tərifləməyə, onunla dostluq etməyə başladılar, ata Buş da bunu davam etdi, guya isti münasibətlər yarandı; o zaman SSRİ dağıldı. Trampın Rusiya haqda dediyi isti sözlərə aldanmaq lazım deyil. Tramp eyni zamanda deyir ki, mən hərbi büdcəni bir neçə dəfə qaldıracam. Mən nüvə silahları sisteminin təkmilləşdirilməsi üçün külli miqdarda vəsait ayıracam. Trampın müşaviri də açıq şəkildə Amerika mətbuatına deyir ki, "Rusiya silahları ilə öyünürsə, biz razı, yarışı yenidən başlayaq. Sürətli silahlanma üçün yaxın 10 ildə buna 10 trilyon dollar vəsait sərf edəcəyik".





Rusiyanın hərbi büdcəsi isə onsuz da Amerikanınkından 20 dəfə aşağıdır. Üstəlik, indidən büdcəsini sosial-iqtisadi problemlərə görə daha da azaldır. Bu günə qədər təhsildə, səhiyyədə nə mümkün idisə, azaltmışdılar...

*R.Arifoğlu:*

***- Rusiyanın imkanlarını çox aşağılayırsız. Bu, o Rusiyadır ki, Suriyada Qərb-Ərəb koalisiyasını, özəlliklə də Amerikanı uddu. Amma siz danışığınızla sanki Amerikanın imkanlarını çox şişirdirsiz.***

- Xeyr. Mən Trampın planlarından danışıram. Tramp hesab edir ki, Rusiya ilə açıq savaşda kəllə-kəlləyə gəlmək lazım deyil. Əksinə, Rusiyanı bu yarışa dəvət etmək lazımdır ki, kimin iqtisadi potensialının daha güclü olduğu üzə çıxsın. Üstünlüyü də orda göstərmək lazımdır.

*R.Arifoğlu:*

***- Bəs demokratiya, Qarabağ, Azərbaycanla bağlı məsələdə nə olacaq? Nə gözləyirsiz? Trampın komandası formalaşır artıq. Nə deyir bu komanda sizə?***

- Qarabağ konfliktinin həlli ilə bağlı variantlardan biri də mərhələli plandır. O planın özünün də iki variantı var: ABŞ və Rusiya variantları. Burada çox şey prinsipcə eynidir: rayonlar addım-addım azad olunur, qaçqınlar öz doğma yurd-yuvalarına qayıdır. Dağlıq Qarabağa müvəqqəti status verilir. Əsas statusun verilməsi isə müəmmalı gələcəyə qalır. Bunlar eynidir - həm Amerika, həm Rusiya variantlarında. Fərq nədən ibarətdir? Amerika variantında Dağlıq Qarabağa girəcək sülhməramlı qüvvələrin tərkibini Amerika müəyyənləşdirir. Burada, alt qatda təbii ki, həm də Azərbaycanın hansı istiqamətə yönəldiləcəyi, NATO-ya və Avropaya inteqrasiya yoluna girəcəyi nəzərdə tutulur... Rusiyanın planında isə odur ki, sülhməramlı qüvvələrin kimlərdən ibarət olduğunu Rusiya müəyyənləşdirməlidir. Təbii ki, həm də o hədəf götürülür ki, bunun da nəticəsində Azərbaycan meyllənəcək Avrasiya İttifaqına və Kollektiv Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına.... Nə vaxt ki, ABŞ özünü güclü hesab edirdi, o zaman da bu planı tək həyata keçirəcəyini bəyan edirdi. Bu, 90-cı illərin ortasında idi. Həmin vaxt Rusiya zəif idi və ABŞ-dan asılı idi. Buna görə də ABŞ o varianta üstünlük verirdi. Çünki bilirdi ki, sülhməramlı qüvvələr də NATO-nun içərisindən olacaqlar, nəticədə Azərbaycan da NATO ilə əməkdaşlığı gücləndirəcək. Həmin vaxt Rusiya bu mərhələli həllin qarşısını almağa çalışırdı. Hansı yollarla? Ermənilərin əli ilə. Onlara direktiv verirdi ki, möhkəm dayanın, paket variantını, status variantını tələb edin. Bununla da hər şeyin qarşısını alırdı. Nə vaxt Petrosyan ABŞ-ın təklifinə "hə" dedi, dövlət çevrilişi oldu və onu devirib, öncə Köçəryanı, sonra da Sərkisyanı hakimiyyətə gətirdilər. İndi vəziyyət dəyişib. Rusiya hiss edir ki, mərhələli planı o özü həyata keçirə bilər, Rusiyanın qoşunları sülhməramlılar kimi münaqişə bölgəsinə gələ bilərlər; nəticədə Azərbaycan da Avrasiya Birliyinə üzv ola bilər. İndi də Rusiya mərhələli plana "hə" deyir, Amerika o tərəfdən ermənilərə deyir ki, "möhkəm dayanın", "paket variantından yapışın", "referendumla statusun müəyyənləşdirilməsini tələb edin".

*R.Arifoğlu:*

***- Bəs Trampın işə başlamasından sonra - yanvar ayından başlayaraq bu durum dəyişəcəkmi?***

***(davamı növbəti sayımızda)***

Söhbəti qələmə aldı:
Sevinc TELMANQIZI





YENİ MÜSAVAT

N 290 (6611) 28 dekabr 2016



# Trampın prezidentliyi ABŞ-ın basqısı altında olanlara nə vəd edir...

**Razi Nurullayev:** "Demokratiya, azad cəmiyyətlər, insan hüquqları kimi məsələlərdə ciddi basqı olacağı gözlənilən deyil"

**Elşən Mustafayev:** "Kimlərsə hesab edir ki, ABŞ Tramp dönəmində daha çox daxili problemlərlə məşğul olacaq, nəinki xarici problemlərlə, ciddi yanılırlar"

**Donald Trampın ABŞ prezidenti kimi rəsmi fəaliyyətə başlamasına bir aydan az vaxt qaldı. Yanvarın 20-də inauqurasiya mərasimi olacaq, yanvarın 21-dən isə Tramp prezident vəzifəsinin icrasına başlayacaq. Tramp seçki kampaniyası zamanı bəyan edib ki, onun prezidentliyi dövründə ABŞ kənar ölkələrin daxili işlərinə qarışmayacaq, inqilablara dəstək verməyəcək.**

Bəs Donald Trampın prezident kimi fəaliyyətə başlaması ABŞ-ın basqısı altında olan ölkələrin, rejimlərin rahat nəfəs almasına gətirib çıxaracaq, yoxsa əksinə olacaq?

**Yeni AXCP-nin sədri Razi Nurullayev** bildirdi ki, ABŞ-ın basqısı altında olan ölkələrin Tramp dönəmində sərbəst nəfəs alması təbii ki, asanlaşacaq. Ümumiyyətlə, Trampın xarici siyasəti Amerika maraqlarına aid hissələrdə kəskinliyi ilə fərqlənəcək. Digər hallarda-demokratiya, azad cəmiyyətlər, insan hüquqları kimi məsələlərdə ciddi basqı olacağı gözlənilən deyil: "ABŞ daha da güclənməyə çalışacaq və bu sahədə ona maneçilik törədən ölkələrə qarşı aqressiv olacaq. Bir də Tramp ABŞ sərmayələrini digər ölkələrdən çəkməyə çalışacaq və təbii ki, bu da ABŞ-la həmin ölkələr arasında narazılıqlara gətirib çıxaracaq. Müsəlman ölkələri ilə problemləri davam edəcək və yəqin ki, ABŞ-ın ənənəvi müttəfiqi olan varlı ərəb ölkələri ilə münasibətlərini iqtisadiyyat üzərində quracaq. Siyasi dəstək isə maddiyyatla ölçüləcək. İnanmıram ki, yeni seçilmiş prezident Tramp müəyyən geopolitik məsələləri ABŞ-ın iqtisadi çıxarlarından üstün tutsun. Əgər ərəb ölkələrinin, o cümlədən ABŞ-ın siyasi və geopolitik anlamda dəstəklədiyi digər ölkələrin siyasi dəstəyə ehtiyacı olacaqsa, bunun əvəzini ödəməli olacaqlar".

**AMİP-in beynəlxalq məsələlər üzrə katibi Elşən Mustafayev isə bildirdi ki, Tramp komandasının xarici siyasətinin açıq konturlarını görmək üçün prezidentin 100 gününü gözləməyə ehtiyac olmayacaq. Gələn aydan prezident kimi fəaliyyətə başlayacaq Tramp ilk günlərdən bu istiqamətdə ABŞ-ın maraqlarının nədən ibarət olacağını ortaya qoyacaq. Komandada mühüm vəzifələrin bir hissəsinin döyüşkən reputasiyaya malik olan generallara, bir hissəsinin isə milyarderlərə həvalə olunması ABŞ-ın dünyanın hərbi və iqtisadi cəhətdən qubernatoru qalmaq və bunu möhkəmlətmək iddialarını bir daha irəli çəkir:** "Əslində dövlət üçün belə iddialarda bulunmaq ölkəsinin milli maraqlarına və milli təhlükəsizliyinə xidmət deməkdir. Baxmayaraq ki, digər dövlətlər bunu fərqli qiymətləndirə bilər. ABŞ-ın xarici siyasətində dövlətlərə və ya rejimlərə basqı ifadəsinə heç vaxt rast gəlməzsiniz. Ölkələrdə insan haqları, demokratik dəyərlərin müdafiəsinə önəm vermək və ya terror təşkilatlarına dəstək vermək ittihamı ilə bir sıra dövətləri suçlamaq keçmişdə də var idi, gələcəkdə də olacaq. Kimlərsə hesab edir ki, ABŞ Tramp dönəmində daha çox daxili problemlərlə məşğul olacaq, nəinki xarici problemlərlə, ciddi yanılırlar. ABŞ -ı güclü super dövlət edən ilk növbədə onun dünya dövlətlərinə nüfuzetmə imkanlarına malik olmasıdır. İqtisadiyyatını və dünya liderliyini sabit saxlamaq üçün bu, vacib amildir. Bu şəkildə siyasətini quracağı halda daxildəki böyük güclər, o cümlədən senat, konqres ona mane olmayacaq. Əks halda isə Tramp üçün çətin olacaq".

❑ **Etibar SEYİDAĞA**

# Səhra komandirlərinin "ağ bayraq" qaldırması Qarabağ üçün fürsətlər yaradır



**Zahid Oruc:** "Ermənistanda müharibə tərəfdarları azalır"



**Elxan Şahinoğlu:** "2016-cı il göstərdi ki, torpaqlarımızı güc yolu ilə geri ala bilərik"

**Başa çatmaqda olan 2016-cı il Qarabağ cəbhəsində ciddi dönüş ili kimi tarixə yazıldı. Atəşkəs haqqında müqavilənin imzalandığı 1994-cü ilin mayından üzü bəri ilk dəfə Azərbaycan ordusu düşmənin təxribatlarının qarşısını almaqla yanaşı, uğurlu döyüş əməliyyatları keçirərək işğalçı ölkənin nəzarətində olan mühüm strateji yüksəklikləri nəzarət altına aldı.**

Hesab olunur ki, məhz Azərbaycanın hərbi cəhətdən bir neçə dəfə üstün olmasını anladığı üçün nəinki keçmiş prezident Levon Ter-Petrosyan, hətta birmənalı şəkildə güzəştlərdən imtina edən sabiq müdafiə naziri Seyran Ohanyan da sülh təşəbbüsləri ilə çıxış etməyə başlayıblar. Ekspertlərin cari ili dəyərləndirməsi və 2017-ci illə bağlı maraqlı gözləntiləri var.

**Milli Məclisin Təhlükəsizlik, müdafiə, korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Zahid Oruc** bildirdi ki, 2016-cı ildə Azərbaycan dövlətçiliyinin möhkəmləndiyi ən mühüm platforma məhz Qarabağ cəbhəsində baş verib: "Doğrudur, uzun illər aparılan sülh prosesi vasitəçilər arasında formalaşan böyük siyasi-hərbi konfrontasiya səbəbilə hər hansı nəticəni əldə etməyə imkan vermədi. Lakin 90-cı illərin hərbi reallığı və müstəqilliyin ilk illərində itirilmiş mövqelər hətta ən zəif ölkə halında belə Ermənistanın xeyrinə işləyirdi və diplomatik cəhdlərin səmərəsizliyinin başlıca səbəbi idi. Aprel ayındakı 4 günlük müharibə on illər ərzində hökm sürən status-kvonu dəyişdirməyə imkan verdi. Təməs xəttinin dəyişməsi və yeni hərbi mövqelərdə möhkəmlənmək məcburiyyəti təkcə siyasi cəhətdən deyil, ilk dəfə olaraq hərbi baxımdan da ənənəvi kursda köklü dəyişikliklərə vəsilə oldu. Söhbət aprel toqquşmalarındakı itkilərin miqyasca böyüklüyündən və onun erməni cəmiyyətində doğurduğu şokdan getmir. Hərçənd onun əhəmiyyəti də insan resursu böhranı yaşayan və demoqrafik potensialı tükənən bir ölkə üçün ölçüyəgəlməzdir. Lakin 1-ci Qarabağ savaşında Azərbaycan üzərində qələbəni təmin edən səhra komandirləri, nəhayət, durduqları vəzifə və nüfuz mərtəbəsindən salındılar. Halbuki oxşar proseslər 90-cı illər Azərbaycanın döyüşlərdə məruz qaldığı uğursuzluqlar fonunda atdığı addımların təkrarına bənzəyirdi".

**Z.Orucun sözlərinə görə, aprel müharibəsindən sonra Qarabağ danışıqları yeni mühəribənin alovlanmasının qarşısını alan Moskvanın regiona təsirini artırsa da, hazırda beynəlxalq qüvvələr nisbəti Qafqazda köklü nəticələr qazanmağa imkan vermir:** "Lakin əvəzində Rusiya silahı ilə güclənən Azərbaycan dövləti erməniləri forpost olmaqdan çıxarır və 100 il ərzində onların sığındıqları səngərdən dünyaya boylanma, yeni tərəfdaşlar axtarmağa məhkum edir. Hər halda, Moskva-Bakı ittifaqı İrəvanın ənənəvi müdafiə mövqeyini dəyişməkdən başqa yol saxlamır. Lakin hətta bütün ölkəni bürüyən anti-Rusiya etirazları fonunda siyasi elitası çörəyi və silahı aldığı paytaxtın hökmranlığına son qoya bilməz. Rus çəkmələri İrəvanda hər zaman böyük siyasi mənə daşımaqda davam edəcək. Çünki alternativlərin hamısı tərk-silah edilib. Hərçənd 2016-cı ilin mühüm nəticələrindən biri yeni reallıqların düşmən tərəfdə dərk olunmasıdır".

**Deputat yuxarıda düşmən ölkə ilə bağlı toxunduğumuz situasiyaya da diqqət çəkdi:** "Günlər öncə birinci Qarabağ savaşının qəhrəmanlarından birinin - Levon Ter-Petrosyanın "sülh platforması" ilə çıxış edərək vaxtilə onu qınayanlara təzədən xitab etməsi böyük hadisədir. Deməli, xalqın içərisində baş verən təbəddülatlar Qarabağa indekslənmiş partiya və hərəkatların hamısına təsir edir. İndi Ermənistanda müharibə tərəfdarları heç zaman olmayacaq dərəcədə azalır. Hətta keçmiş müdafiə naziri Seyran Ohanyanın vəzifəsindən gedəndən sonra daha azad bir şəkildə güzəştlərdən danışması çox böyük mətləblərdən xəbər verir. Siyasi məkanda baş verən hərəkətlənmələr əbəs deyil. Ona görə də Qarabağın siyasi gələcəyi haqda danışanların hamısı sizə aprel ayından sonrakı yeni eradan bəhs edəcək. Doğrudur, hər iki tərəf yeni silahlanma yarışını həyata keçirir. Azərbaycan təkcə lokal bir ərazini - hərbi təmas xəttini deyil, Bakını - neft hövzələrini və su ehtiyatlarını da qorumaq üçün hava hücumundan müdafiə sistemlərini almağı davam etdirir. Lakin qarşı tərəfin büdcə resursu belə rəqabəti uzun illər aparmağa imkan vermir. "İskəndər" raketləri ilə gündəlik vuruşmaq mümkün olmadığından, 2017-ci ildə Qarabağı taleyini vahid cəmiyyətə, iqtisadi sabitliyə və dəqiq hərbi strategiyaya malik olan tərəf həll edəcək. Nəzərə alsaq ki, Qərblə qarşıdurma dövrü arxada qala bilər və yeni Amerika administrasiyası Moskva ilə fərqli bir siyasəti izləyəcək, deməli, Azərbaycan dəyişən beynəlxalq şəraiti çox uğurlu bir şəkildə Qarabağa yönəldəcək".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə bildirdi ki, 2016-cı il Dağlıq Qarabağ münaqişəsinin həlli baxımından dönüş ili olmasa da, keçmiş illərdəkindən fərq də özünü göstərdi:** "Aprel savaşının nəticələri Azərbaycan ordusunun gücünü həm düşmən ölkəyə, həm də beynəlxalq aləmə nümayiş etdirdi. Bu gücün nümayişi Azərbaycan cəmiyyətinə də lazım idi. Çünki son illərdə cəmiyyətdə passivlik yaranmışdı ki, sülh danışıqları illərdir nəticə vermir, güc yolu ilə torpaqlarımızın geri alınması isə uzanır. 2016-cı il göstərdi ki, torpaqlarımızı güc yolu ilə geri ala bilərik, modern texnika ilə silahlanan ordumuz buna qadirdir, gənclərimiz isə erməni gənclərindən fərqli olaraq savaşa atılmaq üçün istənilən fədakarlığa hazırdılar. Az da olsa, işğal altındakı torpaqların bir qismini geri aldıq. Bu, bir ilkdir və yaxşı nümunədir. Aprel savaşı göstərdi ki, sonrakı danışıqlar prosesi də nəticəsiz qalarsa, işğalçıya hərbi təzyiqi artırmalı olacağıq".

**Bu baxımdan, E.Şahinoğlu 2017-ci ildə prosesin davamının olacağını gözləyir:** "Aydındır ki, növbəti ildə də danışıqlar nəticə verməyəcək, böyük dövlətlər Ermənistan hakimiyyətinə təzyiq etməyəcək və buna alternativ olaraq cəbhə bölgəsində gərginlik artacaq. 2017-ci ildə aprel savaşına bənzər hərbi toqquşmanın baş verməsi də mümkündür. "Sülh platforması"nın yaradılması da 2016-cı ilin ən böyük yeniliyidir. Azərbaycanın ərazi bütövlüyünə hörmət edən ermənilərin sayı getdikcə artır. Bu, Ermənistan hakimiyyətinin illərdir apardığı "Dağlıq Qarabağda ermənilərlə azərbaycanlılar bir yerdə yaşaya bilməz" təbliğatının boş olduğunu göstərdi. Azərbaycan hakimiyyətinin və cəmiyyətinin erməniləri Bakıda qəbul etməsi göstərdi ki, xalqımız bütün ermənilərə düşmən deyil, Azərbaycanın ərazi bütövlüyünə hörmət edən ermənilərlə əməkdaşlıq həm mümkün, həm də vacibdir. Ermənistan hakimiyyəti Azərbaycanda hətta hakimiyyətə qatı müxalif bir olan bir azərbaycanlı tapa bilməz ki, İrəvana gedib "Dağlıq Qarabağ Ermənistanındır" desin. Ancaq "Dağlıq Qarabağ Azərbaycan ərazisidir" deyən Ermənistan vətəndaşları var. Bu, Dağlıq Qarabağ məsələsində məhz Azərbaycanın haqlı olduğunu həm Ermənistan cəmiyyətinə, həm də beynəlxalq aləmə göstərir. 2017-ci ildə bu siyasəti genişləndirmək lazımdır. Yəni bir əlimizdə silah, digərində qələm olmalıdır ki, lazım gələndə savaş, o biri hallarda "xalq diplomatiyası" yolu ilə işğal altındakı torpaqlarımızı geri qaytara bilək".

**Əlavə edək ki, səhra komandirlərinin "ağ bayraq" qaldırması, Ermənistanın ağır sosial-iqtisadi durumu, əhalidəki düşkünlük, hərbçilərin özgə torpaqlarında ölmək istəməməsi, üstəlik, Azərbaycan bayrağı altında yaşamaq istəyən ermənilərin sayının artması Qarabağ üçün fürsətlər yaradır.**

❑ **Cavid TURAN**



# İŞİD-çının müraciətindən bir gün sonra Səngəçalda partlayış: terror, yoxsa texnogen qəza?

## Azərbaycanlı "cihadçı"nın videoçıxışının yayılmasının üstündən 1 sutka keçən kimi baş verən hadisə diqqətləri təxribat versiyasının üstünə cəmləyir; ekspert isə bildirir ki, terrorçular öncədən xəbərdarlıq etmir...

**Dekabrın 27-si səhər saatlarında Səngəçal qəsəbəsinin Əzimkənd ərazisində 125 atmosferlik qaz kəmərində güclü partlayış baş verib. Ardınca böyük ərazini əhatə edən yangın başlayıb. Fövqəladə Hallar Nazirliyinin Dövlət Yangından Mühafizə Xidmətinin qüvvə və vasitələri hadisə yerinə cəlb olunub. Baş verən partlayışla bağlı Fövqəladə Hallar Nazirliyinin (FHN) yaydığı açıqlamada bildirilir ki, FHN-in Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Bakı şəhəri, Qaradağ rayonunda diametri 1000-1200 mm olan 2 ədəd qaz xəttində yanğınla nəticələnən partlayış baş verməsi barədə məlumat daxil olub. Hadisə nəticəsində xəsarət alan olmayıb, yaşayış məntəqələri üçün təhlükə yoxdur. Yanğın günortadan sonra da davam edib.**

Partlayış Bakı və Sumqayıt şəhərlərində genişmiqyaslı elektrik kəsintisinə səbəb olub. Paytaxtın, demək olar ki, bütün rayonlarını və şəhərətrafı qəsəbələri əhatə edib. Hadisə onsuz da bərbad durumda olan qaz verilişinə də ciddi təsir göstərib. Abşeron yarımadasının qazla təchizatında müəyyən məhdudiyyətlər yaradıb.

**"Azərişıq" ASC mətbuat xidməti partlayışdan sonra məlumat yayıb. Musavat.com-a daxil olan həmin məlumatda deyilir:**

"Səngəçaldakı qaz qovşağından çıxan magistral qaz xətlərindən birində baş vermiş qəza nəticəsində "Azərenerji" ASC-nin Bakı və Sumqayıt şəhərlərindəki elektrik stansiyalarına verilən qaz təchizatı dayandırılıb. Bununla əlaqədar olaraq "Azərişıq" ASC-nin şəbəkələrində də qismən məhdudiyyətlər tətbiq edilmiş və elektrik enerjisi təchizatında qısa müddətli fasilələr yaranmışdır".

Yaranmış narahatlığa görə "Azərişıq" abonentlərindən üzr istəyib.

Əhali arasında olayın qəsdən törədilməsi haqda məlumatlar yayılıb. Maraqlıdır ki, yanğınla müşayiət olunan partlayışdan 1 gün əvvəl youtube kanalında bir İŞİD ardıcılı olan azərbaycanlının videomüraciəti yerləşdirilib. Həmin videomüraciətdə deyilənlərlə partlayış arasında əlaqənin olduğuna israr etmirik. Həmin videomüraciətdə https://www.youtube.com/watch?v=NLg-rvvQbfs ttps://www.youtube.com/watch?v=NLg-rvvQbfs vəhhabi-sələfi əqidəsinin ardıcıllarından olan azərbaycanlı İŞİD-çi İraqın Mosul şəhərindən Azərbaycan xalqına müraciət edir. O öz müraciətində Azərbaycanı "darul-küfr" (küfr evi) adlandırıb.

Mətbuatda "Azərbaycanlı İŞİD-çi Azərbaycan xalqına müraciət etdi: Çıxın, vurun, öldürün, bıçaqlayın" başlığı ilə tirajlanan bu video Səngəçaldakı partlayışdan 1 gün əvvəl - 26 dekabr 2016-cı ildə yayılıb. Azərbaycanlı olması şübhə doğurmayan şəxs Mosulun xarabalıqları fonunda bu təriqətin ölkəmizdəki ardıcıllarını müraciətində küçələrə səsləyir, deyir ki, xəlfənin vəsiyyətinə əsasən hicrət edə bilməyənlər "onların (yəni Azərbaycanda yaşayan əhalinin - E.M.) gündüzlərini gecə, gecələrini gündüz edin". Ardınca Çeçenistanda, Almaniyada törədilən terror aktlarını diqqətə çatdırmaqla cihad çağırışı edir.



İlham İsmayıl



Mirvari Qəhrəmanlı

Maraqlıdır, bu müraciətdən 1 gün sonra Səngəçalda güclü partlayış baş verir və ətraf tüstü-dumana bürünür, gündüzü az qala gecəyə çevirir, Bakı elektrik enerjisinin verilişində problemlərə görə gündüz qaranlığa qərq olur. Bu, təsadüfidirmi?

### 2 İŞİD-çinin öldürülməsinin 2-ci ayının tamamında qaz borusu niyə partladı?

Başqa bir nüans da diqqət çəkir. Partlayış baş verən ərazinin yaxınlığında iki ay öncə 2 İŞİD üzvü öldürülmüşdü. 2 ayın tamamında belə bir partlayışın həmin ərazinin yaxınlığında olması da maraq doğurur. Üstəlik, həmin ərazinin yaxınlığında salınan yeni yaşayış massivlərində məskunlaşanların arasında sələfi təriqətinin ardıcıllarının çoxluq təşkil etməsi haqda da xəbərlər var. Qeyd edək ki, DTX-nin 2 ay əvvəl keçirdiyi əməliyyatla bağlı yaydığı məlumatda zərərsizləşdirilən şəxslərin Azərbaycanda terror əməlləri planlaşdırdıqları xüsusi vurğulanırdı.

Rəsmi məlumatda qeyd olunurdu ki, zərərsizləşdirilən dəstə üzvləri Azərbaycanda ictimai qaydanı pozmaq, əhali arasında vahimə yaratmaq məqsədilə planlaşdırıblar.

### Cami Emin də ölkədə terror-təxribat törədilməsini planlaşdırıbmış

2016-cı il dekabrın 3-də DTX Bakıda daha bir əməliyyat keçirdi. Bu əməliyyat zamanı 1978-ci il təvəllüdlü Cami Emin Əzizağa oğlu zərərsizləşdirilib. Cami Emin 2007-ci ildə zərərsizləşdirilmiş "Əbu Cəfər" ləqəbli Naif əl-Bədəvinin rəhbərlik etdiyi terrorçu təşkilatın tərkibində fəaliyyət göstərdiyinə görə məhkum olunmuşdu. DTX-nin məlumatında bildirilirdi ki, o, 2016-cı ilin əvvəlində azadlığa çıxdıqdan sonra yenidən ölkə hüdudlarından kənarda aparılan silahlı münaqişələrdə iştirak edən qanunsuz silahlı birləşmələrin və beynəlxalq terrorçu təşkilatların nümayəndələrinin tabeçiliyini qəbul edərək əlaqəli fəaliyyət göstərib. Məlumatda daha sonra bildirilirdi ki, Azərbaycan Respublikasının ərazisində odlu silahdan və partlayıcı qurğulardan istifadə etməklə terror-təxribat törədilməsini planlaşdırıb. Bununla əlaqədar, 2016-cı il dekabrın 3-də Emin Caminin saxlanılması üzrə əməliyyat tədbiri həyata keçirilərkən, sonuncu müqavimət göstərərək üzərində olan "şəhid kəməri"ni partlatmağa cəhd edib, cavab tədbiri olaraq xüsusi əməliyyat qrupu tərəfindən məhv edilib.

### "Azərbaycanda terror olacaqsa, bunu İŞİD..."

**Keçmiş MTN polkovniki İlham İsmayıl baş vermiş hadisəni "Yeni Müsavat"a şərh edib. Onun sözlərinə görə, olay təxribat olsaydı, mütləq bu haqda məlumat açıqlanardı:** "Bildiyimə görə, partlayış texniki nasazlıqdan əmələ gəlib. Bu hadisə ola bilər tam təsadüfən həmin videomüraciətdən sonra baş verib. Elə vaxt olub ki, Bakıda bir günün içində bir neçə yerdə qazdan partlayış əmələ gəlib. Maşın partlayıb, ev partlayıb. Xüsusi ehtiyatlılıq yaxşıdır, amma hər şeyi terrorla bağlamaq düzgün deyil. Əgər terrordursa, terror olduğunu demək lazımdır. Deyilsə, bunu ehtimal etmək düzgün deyil".

**İ.İsmayıl hesab edir ki, partlayış terror olsaydı, bu haqda məlumat verilərdi:** "İlk baxışdan belə görünə bilər ki, azərbaycanlı İŞİD-çi müraciət etdi və belə bir olay meydana gəldi. İŞİD tərkibində olan Azərbaycan vətəndaşlarının zaman-zaman ölkəmizi hədəf götürən müraciətləri olub. Onlar Azərbaycanı ara-sıra yada salırlar. Terrordan əvvəl videomüraciətin olması professional yanaşma deyil, sadəcə, hədədir. Terrorla bağlı açıq mesaj verilmir. Məxfilik gözlənilir. Təbii ki, həmin videomüraciətdən sonra dövlətin xüsusi xidmət orqanları, təhlükəsizliyə cavabdeh olanların hamısı istər-istəməz 1 nömrəli ayıq-sayıqlığa keçirlər. Ona görə də inanmayın ki, qabaqcadan hər hansı bir müraciət edərlər. İŞİD yeni il qabağı ABŞ-da terror törədəcəyi haqda məlumat yaydı. Əslində bu, ümumilikdə ABŞ cəmiyyətini hədələməyə hesablanan açıq mesajdır. İstəyirlər ki, cəmiyyət qorxu içində qalsın, haradasa onlarla hesablaşsınlar, İŞİD-i bombalamaqdan çəkinsinlər. Yəni Azərbaycanı hədəf götürüb, fikri yayındırmaqla, partlayışı başqa bir ölkənin ərazisində də törədə bilərlər. ABŞ-ın adını çəkib, Avropada, Türkiyədə terror olayı törədə bilərlər".

**İ.İsmayıl "qaz borusu öz-özlüyündə nədən partlasın" sualına belə cavab verib:** "Elə vaxt olub ki, qaz partlayışı çöl-biyabanda olub, uzun müddət keçirə bilməyiblər. Ola bilər ki, təzyiq artıq olub, sızma baş verib və partlayışla müşayiət olunan yanğın olub. İstənilən halda ayıq-sayıqlığı itirmək olmaz. Azərbaycanın hədəfə götürülməsi hələ qarşıdadır". İ.İsmayıl deyir ki, bu gün İŞİD-in hədəfi Azərbaycan deyil.

### Hüquq müdafiəçisi "Özbaşına partlayış olmur" deyir

**"Yüksək atmosferli qaz xətti özbaşına, kənar təsir olmadan partlaya bilərmi" sualı ilə Neftçilərin Hüquqlarının Müdafiəsi Təşkilatının (NHMT) sədri, hüquq müdafiəçisi Mirvari Qəhrəmanlıya müraciət etdik.**

**Hüquq müdafiəçisinin cavabı belə oldu:** "Özbaşına partlayış olmur. Partlayış üçün sızma olmalıdır. Sızma yerində kimsə kibrit yandırmalıdır ki, belə bir partlayış meydana çıxsın. Bu, elə-belə partlayış deyil. Son illər quruda olan qaz borularında da bu böyüklüyündə partlayış baş verməyib. Müstəqil araşdırma aparılmalı, orada dəqiq nə baş veribsə, ölkə rəhbərliyinə, ictimaiyyətə məlumat verilməlidir. Bu, sıradan hadisə deyil".

**M.Qəhrəmanlı deyir ki, olayın səbəbi tam araşdırılmadan konkret olaraq təxribat və ya texnogen qəza olmasını söyləmək çətindir:** "Müstəqil araşdırma olmasa nəsə demək çətindir. Yay aylarında Hesablama Palatası "Azəriqaz"da yoxlama aparıb, yoxlama aktı bu gün imzalanmayıb. Həmin aktda çox ciddi qüsurlar yer alıb. Təsəvvür edin ki, bu gün həmin qaz borularının istismarına cəlb edilmiş şəxslər borularda qazın təzyiqinin tənzimlənməsi üçün siyirtmələrin harada yerləşməsindən belə xəbərsizdirlər. Mütəxəssislərin əvəzinə işə götürülənlərin qaz təsərrüfatından anlayışları yoxdur. Orada idarəçilik böhranından keçib, idarəçilik biabırçılığı yaşanır. Elə struktur islahatları aparılıb ki, sadəcə xaos yaranıb. Ona görə xüsusi, müstəqil komissiya işləyib konkret nəticəni ortaya qoymalıdır. Partlayışın təxribat və ya qaz sızmasından doğmasını yalnız müstəqil şəxslər deyə bilərlər. Belə olmayacağı təqdirdə, səbəb ictimaiyyətdən gizlədiləcək".

❑ E.MƏMMƏDƏLİYEV

YENİ MÜSAVAT
N 210 (6611) 28 dekabr 2016

**“Ərəb baharı” və ardınca baş verənlər müsəlman dünyası üçün ağır sınaq oldu. Qlobal terrorizm, cihadçı hərəkatlar və bütöv ölkələri viran qoyan yorucu müharibələr nəticəsində 6 il əvvəl böyük ümidlərlə başlayan “Ərəb baharı”dan qalan xarabalıqlar və məhv olmuş insan taleləridir.**



# Müsəlman ölkələrini bürüyən xaosun səbəbi

## “Ərəb baharı” göstərdi ki, dinin siyasətdə rolu, siyasi hakimiyyətlə bağlı qərarsızlıq xaosun əsas səbəbi olaraq qalır

Nədən belə oldu? İnqilab nəinki demokratiya gətirmədi, əksinə, demokratiya ümidlərini dəfn etdi və dağıdıcı bir müharibə, xaos gətirdi. Doğrudur, Böyük Fransa inqilabından bu yana bütün inqilablar arxasınca vətəndaş müharibələri gətirir. Amma hər nə qədər dağıdıcı olsa da, inqilablar sonda müsbətə doğru dəyişikliklə nəticələnir. Ancaq məsələ ondadır ki, müsəlman aləmində dəyişikliyin baş verdiyi əvvəlki dalğada da müsbət hərəkət olmadı. Yalnız bir istisna xaric.

Müsəlman aləmində avtoritarizm və monarxiya rejimləri daha dayanıqlı və sabit sistemlər kimi özünü göstərir, nəinki demokratik sistemlərdə. Ərəb-müsəlman aləmində ilk siyasi dəyişiklik küləkləri 100 il əvvəl Osmanlı İmperiyasının dağılması ilə başladı. 500 il ərəb dünyasını bir dövlətdə saxlayan Osmanlı Birinci Dünya savaşında uduzduqdan sonra bu torpaqları da itirdi. Millətlər Məclisinin mandatı altında qurulan ərəb krallıqları müstəmləkə dövlətlərinin təsiri altında əslində quberniyalar idi. Bu siyahıda İraq, Misir, Səudiyyə Ərəbistanı və sair kimi böyük ölkələr vardı.

Müsəlman aləmində ikinci dövlətləşmə dalğası II Dünya müharibəsindən sonra, daha dəqiqi, 50-ci illərdən sonra baş verdi. Bu mərhələdə bir sıra müsəlman xalqları müstəqillik qazandılar. Pakistandan Əlcəzairə qədər böyük coğrafiyada 50-dək müsəlman ölkəsi, yəni bütöv bir müsəlman ölkələr birliyi ortaya çıxdı. Məhz bu dövrdə bir tərəfdə yeni dövlətlər yaranır, müstəmləkə işğallarına qarşı azadlıq müharibələri davam edir, digər tərəfdən isə 50-ci illər həm də Misirlə başlayan ərəb solunun parlaması, hərbçilərin hakimiyyəti ələ alması tendensiyası yaşanırdı. Misir, daha sonra İraq, Liviya, Yəmən, Suriyada 60-cı illərin sonlarına qədər davam edən hərbi çevrilişlər nəticəsində bir sıra müsəlman ölkəsində süni quberniya-krallıqlar dağıldı, onları hərbçilərin rəhbərlik etdiyi respublika rejimləri əvəz elədi.

Ancaq həm 20-ci əsrin 50-60-cı illərində baş verənlər, həm də bu gün yaşananları analiz edəndə maraqlı bir mənzərə alınır. Müsəlman ölkələrinin ən parlaq dönəmləri məhz avtoritar idarəçilik, monarxiya hakimiyyətlərinin mövcud olduğu zamandır. Məsələn, bu gün hətta ən sərt tənqidçiləri belə Liviyanı Qəzzafi zamanı ilə müqayisə edə bilmirlər. Çünki Qəzzafi zamanında dünyada rifah ölkəsi kimi tanınan Liviya indi rəsmən müharibə cəhənnəmidir, o ölkəyə gedən kiminsə sağ qalmaq ümidi belə yoxdur. Ölkə başdan-başa silahlı. Bir-birinə qarşı düşmən münasibətdə olan terror qrupları, tayfa silahlıları ilə qaynayır. Ən azı iki dəfə hərbi və siyasi qruplar arasında sülh əldə olunsa da, ölkədə sabitliyə səbəb olmayıb.

Və yaxud Suriya, İraq nümunəsi. İraqda hər nə qədər qəddar Səddam Hüseyn diktaturası olsa da, ölkədə onun zamanında sabitlik və iqtisadi inkişaf mövcud olub. Ancaq 2003-cü ildə ABŞ-ın İraqı işğal etməsindən sonra bu ölkədə sabitliyi bərpa etmək mümkün olmayıb. Və Əfqanıstanın Zahir şah və ondan sonrakı respublika dönəmi indi xoş xatirə kimi yada düşür.

Burada diqqət çəkən ən önəmli məsələ məhz siyasi keçidin uğurla baş tuta bilməməsidir. Yəni müsəlman xalqları monarxiyadan və ya avtoritar-diktator rejimlərdən qurtula bilmir və qurtulduqda isə daha pis rejimə düşür, demokratiya xəyal olaraq qalır. Ən son “ərəb baharı” və sonrası baş verənlər bunun əyani nümunəsi oldu. Əfqanıstanda Zahir şahı kommunistlər, onları isə uzun-uzadı müharibədən sonra Taliban əvəz elədi. Oxşar nümunələri digər ölkələrlə bağlı da çəkmək olar.

Məsələ ondadır ki, müsəlman aləmində inqilabların terror, xaos və müharibələrə çevrilməsi konseptual problemlə bağlıdır. Xüsusən də son 6 ildə baş verənləri analiz edəndə aydın olur ki, əslində inqilabların qanlı müharibələrə və xaosa çevrilməsinin əsas səbəbi ideoloji seçim və istiqamətin olmamasıdır. Daha konkret ifadə etsək, müsəlman dünyası uyğun idarəçilik modelini hələ tapa bilməyib. 20-ci əsrin əvvəllərində krallıqların yaranması və sonrakı proseslər göstərdi ki, xarici mandatla mövcudluğunu qoruyub saxlayan bu süni krallıqla xalqların dərin bağı yoxdur. Yalnız bir neçə ölkədə yerli şərtlər, eləcə də dini-ideoloji manipulyasiyalar ərəb krallıqlarını legitimləşdirdi. Ancaq İkinci Dünya müharibəsindən sonra bir sıra böyük müsəlman ölkəsində baş verən hərbi çevrilişlər və xalqın yeni qüvvələrə dəstək verməsi bir tərəfdən köhnə hakimiyyətlərə etimadın olmaması idisə, digər tərəfdən uyğun model axtarışı idi. Ancaq tezliklə xalq dəstəyi ilə gələn hərbçilərin rəhbərlik etdikləri respublikalarda avtoritar rejimlər yaranmağa başladı. Əslində başqa yol da yox idi. Çünki xalq böyük ölçüdə istədiyini ala bilməmişdi, müsəlman xalqın dünyəvi hərbçilərə ilk dəstəyi olsa da, sonradan rejimlərin sərtləşməsi bu ittifaqları parçaladı.

“Ərəb baharı”ndan sonra bir sıra ölkələrdə silahlı gücə çevrilən islamçıların, yəni həm də inqilabın lokomotivlərinin ələ keçirdikləri ərazilərdə “demokratiya haramdır” yazılan lövhələr yerləşdirməsi yeni model axtarışının ən bariz nümunəsi idi.

Görünən odur ki, müsəlman aləmi seçim qarşısındadır. Xüsusən də ərəb coğrafiyasında yaşayan xalqlar gələcəyə hansı model idarəçiliklə getməklə bağlı seçim etməlidirlər. Son zamanlar Misir və Liviya nümunəsində ərəb dünyasında dünyəvi hakimiyyətlərin geri dönməsi tendensiyası müşahidə olunur. Gələcəyin müsəlman dövlətləri dini hakimiyyət, yoxsa sırf dünyəvi idarəçilik sistemində olacaqlar? Yeri gəlmişkən, Türkiyədə AKP hakimiyyətə gəldikdən sonra ərəb-müsəlman dünyasında “Türkiyə modeli” deyilən bir modeldən danışılmağa başlandı. Hakimiyyətə seçki yolu ilə islamçı partiyaların gəlməsi ideyası Türkiyədən sonra Fələstində seçkiləri HƏMAS-ın qazanması ilə daha da gücləndi. Müsəlman aləmində islamçı hərəkatların fəallaşması ümidləri artırırdı. Hətta “ərəb baharı”nın ilk vaxtlarında Türkiyə inqilab edən müsəlman ölkələri üçün model idi.

Ancaq yalnız Tunis istisna olmaqla, digər müsəlman ölkələrində inqilabda qalib gələn islamçılar Türkiyə modelini örnək ala bilmədilər. Əvəzində müharibələr başladı. Tunisdə isə yetkin islamçı siyasi qüvvə “ən-Nahda” Hərəkatı və onun lideri Rəşid Qannuşi parlament sistemini dəstəkləməsi, birbaşa hakimiyyətə iddia etməməsi, koalisiya hökumətinə getməsi Tunisdə həm ölkəni ehtimal olunan vətəndaş müharibəsindən qorudu, həm də islamçıların nüfuzunu saxladı. İndi hazırda Yaxın Şərq münaqişələrində ən çox iştirak edən tunislilər olsa da, ölkədə terror demək olar ki, yoxdur. Misirdə isə “Müsəlman Qardaşlar” Hərəkatı hakimiyyətə gəlsələr də, onu yalnız bir il qoruya bildilər.

Nəticə etibarı ilə xaricdən güclü müdaxilə, regional və beynəlxalq oyunçuların müsəlman dünyasındakı həddən artıq təsirinin olması, üstəlik, daxildə yetkin siyasi baxışlı qüvvələrin olmaması müsəlman aləmini yolayrıcında saxlayır. Demokratiya, yoxsa dini hakimiyyət, monarxiya, yoxsa respublika və ya xilafət. Təəccüblü də olsa indi müsəlman aləmində xilafət tərəfdarları da az deyil.

Tunis nümunəsi göstərdi ki, siyasi qüvvələrin yetkinliyi, təşkilatlanmış olması ölkəni müəyyən qədər kataklizmdən qoruyub saxlaya bilir. Doğrudur, Tunis bir az kənarda idi. Amma Qannuşi faktoru, onun demokratiya və siyasi plüralizm tərəfdarı olması son nəticədə Tunisi qoruyub saxlaya bildi. Ümumilikdə isə siyasi hakimiyyət doktrini, İslam dininin siyasətə nə qədər təsiri olması ilə bağlı köklü sualların cavabları tapılmadıqca müsəlman aləmində davamlı siyasi və ictimai sabitlikdən, inkişafdan danışmaq çətin olacaq.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# Qadınların depressiyadan çıxış yolları...



## Kimi saçını kəsdirir, kimi çox yeyir, kimi də bədxərclik edir…

**Qadınlar kişilərə nisbətən iki dəfə artıq depressiyaya düşə bilirlər. Bunu araşdırmalar da sübut edir. Səbəbi isə odur ki, qadınların özlərinə tələbatı çoxdur, eyni zamanda ətrafından daim diqqət, qayğı umurlar. İstədikləri diqqəti görməyəndə isə asanlıqla depressiyaya düşürlər.**

Aparılan sorğulardan da məlum olur ki, bu cür hallarda qadınlar bəziləri xarici görünüşlərində dəyişiklik edir, hətta ehtiyac olmadığı halda gözəllik salonlarına gedib ya saçlarını kəsdirib-rəngləyir, alış-verişə çıxır, çox yeyir, ya da səyahətə çıxırlar. Beləliklə, də özlərini motivasiya etməyə çalışırlar.

Təbii ki, problemdən bu cür çıxış yolu tapmaq o qədər də uğurlu olmur. Məsələn, çox yemək, gözlənildiyi kimi, qadınlara xoşbəxtlik yox, daha çox artıq çəki, yorğunluq gətirir. Halbuki əvvəllər klassik depressiyada daha çox iştah azalar, həddən artıq arıqlama müşahidə olunurdu. Amma bu gün müasir depressiyanın ən böyük bəlalarından biri iştahanın patoloji şəkildə artması, kökəlmə və piylənmədir. Qadınlar sanki bütün depressiya acıqlarını, hirslərini yeməklə aradan qaldırmağa çalışırlar.

Və yaxud həddən artıq bədxərclik sonradan qadınlara başqa sosial problemlər yaradır və sairə.

**“Ümumiyyətlə, depressiya bir xəstəlikdir”. Bu sözləri psixoloq Dəyanət Rzayev “Yeni Müsavat”a açıqlamasında bildirib. Psixoloqun sözlərinə görə, qadınların depressiyadan çıxış yolları tapması onların insani dəyərlərindən və maddi durumundan çox asılıdır:** “Təbii ki, insanın maddi durumu yaxşıdırsa, o, daha çox alış-verişə üstünlük verəcək. Həqiqətən də insan alış-veriş edib əyninə yeni geyim geyinəndə özünü tamamilə başqa cür hiss edir. Əgər adi bir geyimdəsiniz və xoşagəlməz bir olay baş veribsə istər istəməz əhvalı düzəltmək çox çətin olur. Ona görə də bu cür hallarda əksər qadınların alış-veriş etməsi normal bir haldır. Bəzi qadınlar isə idmana gedir, təbii ki, bu da maddi imkandan asılıdır. Digərləri isə başqa cür reaksiya göstərir, rəfiqələri ilə görüşüb dedi-qodu edir, bəzilərinin isə ümumiyyətlə, kiminləsə danışmağa əhvalı olmur. Yaşadığı stresslə mübarizə aparmaq üçün digər üsullara əl atır. Məsələn, saçını kəsdirir, ya da ki, rəngini dəyişir. Beləliklə, güzgüyə baxdıqda özündə dəyişiklik, yenilik görür və bu ona stressdən çıxmağa köməklik edir”.

❑ **Xalidə GƏRAY**

# Marneulidə azərbaycanlı qadın ərini baltalayıb öldürdü



**Gürcüstanın Marneuli rayonunda azərbaycanlı kişi balta ilə qətlə yetirilib. Hadisə azərbaycanlıların kompakt yaşadığı Marneuli rayonunun Təzəkənd kəndində baş verib.**

Qətlin ailə münaqişəsi zəminində baş verdiyi bildirilir. Ərini öldürən qadın artıq saxlanılıb.

Marneulidə baş vermiş qətl hadisəsinin təfərrüatları məlum olub.

APA-nın Gürcüstan bürosunun məlumatına görə, 33 yaşlı Ruslan Kərimov yaşadığı evin ikinci mərtəbəsində balta ilə öldürülüb.

Alget kənd (Təzəkənd kəndi Alget kənd inzibati ərazisində yerləşir) icra nümayəndəliyinin rəhbəri Maşallah Balakişiyev APA-ya açıqlamasında bildirib ki, hadisə ilə bağlı müxtəlif versiyalar var.

Versiyaların birinə görə, R. Kərimov intihar edib. Digər versiyaya əsasən, o, həyat yoldaşı, 23 yaşlı Türkan Kərimova tərəfindən öldürülüb.

**Kənd sakinlərinin dediyinə görə, öldürülən şəxs sifət nahiyəsindən 4 balta zərbəsi alıb. Kənd icra nümayəndəliyinin rəhbəri M. Balakişiyev R. Kərimovun 10-15 gün bundan əvvəl Rusiyadan qayıtdığını bildirib:** "Rusiyadan qayıdan Ruslan hər gün yeyib-içirdi. Amma həmişə içən deyildi. Deyilənə görə, o, bazar günü-dekabrın 25-dən 26-na keçən gecə təqribən saat 01.00-02.00 radələrində öldürülüb. Hadisə baş verdikdən sonra polis əməkdaşları kəndə gəliblər və meyiti ekspertiza məqsədilə Rustavi şəhərinə aparıblar".

**R. Kərimovun adının çəkilməsini istəməyən yaxın qohumu hadisəni 3 uşaq anası T. Kərimovanın törətdiyini deyib:** "Türkan deyib ki, ərim dəfələrlə mənə deyirdi ki, səni öldürəcəyəm. Səbəbini isə bildirmirdi. Buna görə də o, Ruslanı öldürüb".

Hadisə ilə bağlı ailə üzvləri və yaxın qohumları cinayətin baş verməsi səbəblərini öyrənmək üçün polis idarəsinə dəvət olunub.

Meyit yaxın qohumlarına təhvil verilib və sabah ekspertizanın rəyi açıqlanacaq. R. Kərimov dekabrın 28-də dəfn olunacaq.

T. Kərimova hazırda Marneuli polis idarəsindədir.


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)

**Tel: (050) 213 88-05.**

**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**


## Bakıda taksi sürücüsünə qarşı quldurluq edildi

**Dekabrın 26-da Sabunçu rayonunun "Baksol" yaşayış sahəsində Füzuli rayon sakini Xaləddin Məmmədovun idarə etdiyi "Opel" markalı avtomobilə sərnişin qismində oturmuş 3 nəfər Sabunçu qəsəbəsinə gedəcəklərini bildirib.**

Onlar qəsəbə ərazisində sürücünü bıçaqla hədələyərək pul verməsini tələb ediblər, X.Məmmədov pulunun olmadığını dedikdə isə onu avtomobildən düşürüb həmin nəqliyyat vasitəsində gediblər.

Daxili İşlər Nazirliyindən verilən məlumata görə, Sabunçu RPİ 12-ci PB, Nəsimi RPİ 19-cu PB və Bakı BPİ DYPİ əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində avtomobil həmin gün Binəqədi rayonu ərazisində tapılıb və hadisəni törətməkdə şübhəli bilinən Bərdə rayon sakini Vüsal Əliyev tutulub, digər 2 nəfər isə müəyyən edilib.

Sabunçu RPİ tərəfindən araşdırma aparılır.



## 11 evi qarət etmiş dəstə zərərsizləşdirildi

**Sumqayıtda 11 evi qarət etmiş dəstə üzvləri zərərsizləşdirilib. Daxili İşlər Nazirliyindən «Trend»ə verilən məlumata görə, oğurluq etdiyinə görə tutulmuş Sumqayıt şəhər sakini Elvin Nəsrullayevin ətrafında Sumqayıt ŞPİ əməkdaşları tərəfindən aparılmış əməliyyat tədbirləri ilə onun həmyerliləri, əvvəllər məhkum olunmuş Hikmət Fərəcov, Həsən Mehdiyev, Qəmbər Məmmədov və Asim Abbasovla birgə oktyabrın 22-dən dekabrın 7-dək olan müddətdə şəhər ərazisindəki 11 evdən və 1 qarajdan təmir-tikinti alətləri, qızıl və məişət əşyaları oğurlaması da müəyyən edilib.**

Həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində H.Fərəcov, H.Mehdiyev, Q.Məmmədov və A.Abbasov da tutulublar.



## 30 dekabrda bulvarda attraksionlar pulsuz olacaq

**Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Dənizkənarı Milli Parkda atəşfəşanlıq olacaq. Bu barədə Dənizkənarı Bulvar İdarəsinin rəis müavini Nazim Məcidov deyib.**

O qeyd edib ki, 31 dekabrda əqrəblər gecə yarısını göstərəndə möhtəşəm atəşfəşanlıq olacaq və Bakı Yeni ili qarşılayacaq.

"Konsert proqramı olmayacaq. Amma atəşfəşanlıq üçün artıq Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən müraciət olunub və qurğular quraşdılır. Atəşfəşanlıq Bulvar ərazisində bir yerdə - estakadanın üzərində olacaq".

N.Məcidov qeyd edib ki, dekabrın 30-da bulvarda 15 yaşına qədər uşaqlar üçün aksiya keçiriləcək: "Bulvar ərazisindəki bütün attraksionlar saat 10:00-dan 14:00-a qədər pulsuz olacaq". (azvision)



## Digər nəqliyyat vasitələrinin sərnişin avtobuslarının dayanacaqlarından istifadəsi qadağan edilir

**Azərbaycanda müntəzəm sərnişin daşıyan avtobus marşrutlarından və dayanacaqlarından digər nəqliyyat vasitələrinin istifadəsi qadağan edilir. APA-nın məlumatına görə, bununla bağlı İnzibati Xətalar Məcəlləsinə əlavələr təklif olunur.**

Məcəllənin 322-ci (Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması qaydalarının pozulması) maddəsinə əlavə edilən .0.8-ci bəndə görə, qeyri-müəyyən sərnişin daşımalarının müntəzəm avtobus marşrutları üçün müəyyən edilmiş hərəkət cədvəlləri ilə yerinə yetirilməsi məsuliyyət yaradır və buna görə 40 manatdan 50 manata qədər cərimə tətbiq olunur.

Maddəyə əlavə edilən digər .0.9-cu bəndə görə isə qeyri-müntəzəm sərnişin daşımaları yerinə yetirilərkən müntəzəm marşrutlar üçün müəyyən edilmiş dayanacaqlarda sərnişinlərin mindirilməsi və düşürülməsi məsuliyyət yaradır və buna görə də 40 manatdan 50 manata qədər cərimə tətbiq ediləcək.

Layihə Milli Məclisin plenar iclasına tövsiyə olunub və dekabrın 30-da müzakirəyə çıxarılacaq.

## Bu il Azərbaycanda 10 minə yaxın zəlzələ qeydə alınıb

**2016-cı il ərzində Respublika Seysmoloji Xidmət Mərkəzinin respublika ərazisində olan 42 seysmik stansiya ( 35 daimi və 7 stasionar) tərəfindən 9905 zəlzələ qeydə alınıb.**

APA-nın məlumatına görə, bunu bu gün AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzində AMEA-nın Yer Elmləri bölməsinin və RSXM-in Elmi-Texniki Şurasının birgə iclasında AMEA nəzdində RSXM-in baş direktoru, AMEA-nın müxbir üzvü Qurban Yetirmişli bildirib.

Q. Yetirmişli deyib ki, Azərbaycan və ona bitişik ərazilərdə 7866, respublika ərazisində 4365, dünyada 2039 zəlzələ RSXM tərəfindən emal edilib. Azərbaycan ərazisində maqnitudası 3-dən yuxarı olan 91 zəlzələ olub. Onlardan 18-i hiss olunub. İl ərzində respublika ərazisində baş verən ən güclü zəlzələ isə 1 avqust 2016-cı il tarixində İmişli rayonu ərazisində baş verən və maqnitudası 5.6 olan zəlzələ olub.

YENİ MÜSAVAT
N 290 (6611) 28 dekabr 2016



# Avropa Milad terroru təhdidi qarşısında

## Ekspert: "Terror şəbəkələri ilin son günləri üçün də "sürprizlər" hazırlaya bilər"

**Avropa ölkələri və ABŞ-ın əhalisi bu il Milad bayramını səvincdən çox qorxu hissi ilə gözləyir. Çünki bu ölkələrin milli təhlükəsizlik orqanları tərəfindən əhaliyə Milad bayramı ərəfəsində terror təhlükəsinin olacağı haqqında xəbərdarlıq edilib. Avropol (Avropa İttifaqının polis xidməti) Milad və Yeni il bayramları ərəfəsində Avropada terror aktlarının mümkünlüyü barədə xəbərdarlıq edib.**

Xəbərdarlıqda bildirilir ki, terror aktları Fransa, Almaniya, Belçika və Şimali Avropa ölkələrində həyata keçirilə bilər. Müvafiq xəbərdarlıqlar Avropa ölkələrinin hüquq-mühafizə orqanlarına göndərilib.

Xatırladaq ki, dekabrın 19-da yük maşını Berlinin mərkəzində Milad bazarında toplaşmış insanların arasına girib. Nəticədə 12 nəfər həlak olub, 48-i yaralanıb. Hücuma görə məsuliyyəti İŞİD terror qruplaşması üzərinə götürüb.

Federal Təhqiqatlar Bürosu da (FTB) Milad günlərində ABŞ ərazisində İŞİD terrorçu qruplaşması tərəfindən terror aktlarının həyata keçirilməsi ehtimalı barədə xəbərdarlıq yayıb. Büronun məlumatında bildirilir ki, FTB bəzi onlayn yazılarda Amerika kilsələrinə qarşı hücumlar etmək barədə çağırışlardan xəbərdardır. FTB vəziyyətə nəzarət edir və bu təhdidlərin nə qədər ciddi olduğunu araşdırır.

Eyni zamanda ABŞ Dövlət Departamenti, yüksək terror təhlükəsini əsas gətirərək, Amerika turistlərini İordaniya və Misirin bəzi rayonlarına səfər etməkdən imtina etməyə çağırıb.

**Politoloq Şahin Cəfərli bildirdi ki, terror təhdidi artıq uzun müddətdir ki, qlobal miqyasda permanent bir təhlükəyə çevrilib:** "Yəni hər an, hər yerdə terror gözləmək olar. Yaxın Şərq regionu ilə yanaşı, bu təhlükə Türkiyə, Avropa ölkələri və ABŞ üçün xüsusilə aktualdır. Yeni il bayramları xristian ölkələrində coşğu ilə qeyd edilir və insanlar kütləvi şəkildə bir araya gələrək əylənməyi sevir. Belə kütləvi toplanış yerləri, əyləncə məkanları, meydanlar terrorçular üçün potensial hədəfdir. Dekabrın 19-da Berlində baş vermiş terror aktı zamanı da məhz bu cür yer hədəf seçilmişdi. Almaniya paytaxtındakı "Milad bazarı"na hücum zamanı 12 nəfər ölmüşdü. Bu hadisə, eləcə də iyul ayında Fransanın Nitsa şəhərində baş vermiş analoji terror aktı göstərdi ki, bu gün terrorçular silahsız, bombasız da terror törətmək imkanına malikdir. Onlar asanlıqla ağır tonnajlı avtomobil əldə edərək insanların üzərinə sürə bilər. Bu tip terror aktlarının qarşısını almaq həddən artıq çətindir. Bomba yüklənmiş avtomobillərlə törədilən intihar hücumlarını əngəlləmək də asan deyil. Bu baxımdan, hazırda dövlətlərin təhlükəsizlik strukturlarının işi çox çətinləşib. Onlar yeni təhdidlərə sürətlə adaptasiya olmaq və qabaqlayıcı tədbirlər görmək zorundadır.

Sona çatmaqda olan 2016-cı ili bütövlükdə terror təhlükəsinin zirvə nöqtəsinə çatdığı il kimi xarakterizə etmək olar. Şübhə etmirəm ki, terror şəbəkələri ilin son günləri üçün də "sürprizlər" hazırlayıb. Ümid edək ki, təhlükəsizlik orqanları preventiv addımlarla bu təhdidləri neytrallaşdıra biləcək və dünya rahat şəkildə Yeni ilə qədəm qoyacaq. Amma ona da şübhə yoxdur ki, terror mövzusu 2017-ci il üçün də ən aktual mövzu olacaq".

**Politoloq Arzu Nağıyev isə "Yeni Müsavat"a açıqlamasında Avropada insan haqlarına olan həssaslığın terrorla mübarizə tədbirlərinə mane olduğunu bildirdi:** "Avropada baş verən hadisələr ondan xəbər verir ki, təhlükəsizlik xidməti öz işini yüksək peşəkarlıqla qura bilmədi. Təbii ki, bunun da bir sıra problemləri var idi. Əsas səbəb o idi ki, avropalılar insan haqlarını siyasətlə qarışdırdılar. Terrorla mübarizədə Avropa demək olar ki, əks-kəşfiyyat əməliyyatlarının keçirilməsi prosesini tətbiq etmədi. Lakin bu mütləq tətbiq olunmalı idi. Fransada fövqəladə vəziyyət elan olunsa da, bu heç də ona bənzəmirdi. Hamı küçədə gəzişir, istədiyini edirdi. Bu tədbirlər daha sərt olsaydı, daha çox effekt verə bilərdi. Bu məsələdə insan haqları haqqında söhbətləri yığışdırmaq lazımdır. Çünki istənilən anda həmin insanların həyatları məhv ola bilər. Terror aktlarını törədənlərin əksəriyyəti miqrantlardır, vaxtilə kənardan Avropaya köçənlərdir. Bundan başqa, sələfilərin, müxtəlif İslam fondlarının, məscidlərin özlərində avropalılar agentura əməliyyat fəaliyyətlərini yerinə yetirmirlər. Burada məlumatların alınması çətinləşirdi, əməliyyat şəraitinə nəzarət olunmurdu".

**Ekspertin fikrincə, avropalılar miqrantlara münasibətdə diqqətli olmalıdırlar:** "Üçüncü bir məqam əhali ilə işləmək məsələsidir. "Biz terrordan qorxmuruq, terror sadəcə qorxutmaq üçündür" kimi bəyanatlar terrorla mübarizə metodları ilə üst-üstə düşmür. Bu cür müraciətlər heç bir zaman faydalı olmur. Yeni il bayramı ilə əlaqədar Avropada yarmarkalar keçirilir. Həmin yarmarkaların qarşısı bağlanmalıdır. Beton piltələr qoyulmalıdır. Ümumiyyətlə, oraya böyük yük maşınlarının girişi qadağan edilməli idi. Avropada buna əməl etmirlər.

Dövlətlər arasında məlumat mübadiləsinin olmaması da problemdir. Hər hansı ölkədə terror aktı baş verirsə, ətraf ölkələrlə məlumat mübadiləsi aparılmalıdır. Avropa ölkələri arasında siyasi münasibətlər normal olsa da, tərəfdaş münasibətlərinin olmaması, bundan imtina edilməsi terror üçün zəmin yaradır. Avropa unudur ki, terror bir ideologiyadır, bunu KİV vasitəsilə təbliğ və təşviq etmək olmaz. Təsəvvür edin ki, onlar müsəlmanlar yaşayan icmalara hansısa Avropa dəyərlərini yeritməklə, orada gey paradlar keçirməklə heç nəyə nail ola bilməzlər. Həmçinin hər bir müsəlman da Avropaya gedəndə bilməlidir ki, həmin cəmiyyətə adaptasiya olunmalıdır. Lakin bu heç də o demək deyil ki, onlar milli adət-ənənələrini Avropaya satmalıdır. Bu məsələni nəzarətdə saxlamaq lazımdır. Problemli məsələlərdən biri də budur ki, terrorçulara qarşı çox sərt addımlar atılmır. Avropada bu məsələlərə diqqət yetirilməsə, terror baş alıb gedəcək. Milad bayramının keçiriləcəyi ərazilərdə ciddi nəzarət tətbiq olunmalıdır".

❑ **Nərgiz LİFTİYEVA**

# Şaxta baba və Qar qız olmaq üçün 60 manat

## BŞİH rəsmisi: "Onlar fəaliyyət göstərmək üçün bizdən icazə almalıdır, əsas odur ki, sağlam olsunlar"

**Yeni ili onun atributları sayılan Şaxta baba və Qar qızsız təsəvvür etmək mümkün deyil. Artıq paytaxtın hər yerində Şaxta baba və Qar qıza rast gəlinir. Onlar yolka ağacının kənarında dayanaraq körpələrlə şəkil çəkdirir, onları əyləndirməyə çalışırlar. Maraqlıdır, bəs Bakıda Şaxta baba olmağın şərtləri nədir?**



**Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) Ticarət və Xidmət Departamentinin mətbuat xidmətinin rəhbəri Əlabbas Bağırov bunun üçün xüsusi yaş məhdudiyyətinin olmadığını dedi:** "Şaxta babalar fəaliyyət göstərmək üçün bizdən icazə almalıdır. Gəlib deyirlər ki, məsələn, "Torqovı"da (Nizami küçəsi-red.)-filan restoranın qabağında qurulmuş yolkanın yanında dayanmaq istəyirəm. Şaxta babaya verilən icazə müddətində onun iş yeri ora sayılır, başqa yerdə gedib dayana bilməz. Biz şaxta babalara fəaliyyətləri üçün dekabrın 20-dən yanvarın 10-dək icazə vermişik. Şaxta babanı evə aparmaq istəyənlər də olur. Bizə bu cür 7 fiziki şəxs müraciət edib. Biz də buna icazə vermişik. Həmin günlərdə bu şəxslər Şaxta baba kimi evlərə gedəcəklər. Biz bilmirik ki, onlar nə vaxt gedəcəklər. Valideynlər istəsə, bizə müraciət edə bilərlər. Biz valideynləri evə gedə biləcək şaxta babalara yönləndirə bilərik. Bunun üçün dövlət rüsumu 60 manatdır. Onlar gün ərzində qazandıqları puldan artıq heç bir rüsum ödəmirlər. Bu, mövsümi xarakterli işdir. Onlar ona görə Şaxta baba olmaq istəyirlər ki, mövsümi fəaliyyətdən nəsə qazana bilsinlər. Əvvəllər, yəni sovet dönəmində şaxta babalara aylıq maaş alırdı. Buna görə də məsələ artıq onların küçədə neçə uşaqla şəkil çəkdirib pul qazanmasından getmirdi. Bu fəaliyyət üçün ona icazə və əmək haqqı ödənilirdi. Ancaq indi bu yoxdur. Bu şəxslər 60 manat dövlət rüsumunu ödədikdən sonra kostyumlarını alıb fəaliyyətə başlayırlar. Bu, o qədər də asan iş deyil, əziyyətlidir".

**Şaxta baba və Qar qız olmaq üçün xüsusi göstəricilərin olub-olmamasına gəlinə isə Ə. Bağırov bunun üçün xüsusi bir göstəricilərin olmadığını bildirdi:** "Əsas odur ki, Şaxta baba və Qar qız olmaq istəyən şəxslərin sağlamlığı yerində olsun. Çünki onlar daim uşaqlarla təmasda olur. İndi qrip yayılıb. Biz çalışırıq ki, Şaxta baba və Qar qız olanlarda heç bir xəstəlik olmasın. Şaxta babaların əksəriyyəti neçə illərdir bizimlə işləyir və biz onların sağlam olduqlarını bilirik. Bu məqsədlə yeni kimsə bizə müraciət edirsə, biz ondan sağlamlığı haqqında arayış tələb edirik ki, bilək, bu adamın ciddi yoluxucu xəstəlikləri var, ya yox. Şaxta baba və Qar qız olmaq istəyənlərdən boyları, yaşları, dil bilib bilməsi ilə bağlı hansısa tələbimiz olmur. Təbii ki, çox dil bilsə, çox yaxşı olardı. Ancaq bilmirsə, biz onu öyrənməyə məcbur etmirik. Şaxta baba və Qar qız olmaq üçün bizə müraciət edənlərin yaşı 35-40-dan yuxarı deyil. Yaşlıların soyuqda dayanması bir az çətindir. Elə vaxt olur ki, onlar soyuqda axşam saat 10-12-yə kimi dayanmalı olurlar. Bunların yeməkləri, dincəlmək üçün isti yerləri olmalıdır. Şaxta baba və Qar qız geyimlərini onların özləri tapır. Sovet vaxtında televiziyalarda Şaxta baba kimi respublikanın tanınmış aktyorları olurdu. Düzdür, onlar gəlib küçədə dayanan deyillər. Ancaq televiziyada da artıq yoxdur. Təəssüf ki, bu ənənələr dayandı. Heyf ki, indi bunların heç biri yoxdur".

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT

Son səhifə

N 290 (6611) 28 dekabr 2015

# Buğa yarışda məğlub oldu və... ağlamağa başladı



Türkiyənin Ege bölgəsində ənənəvi hala gələn buğa yarışlarında ilginc bir hadisə yaşanıb. Arenada rəqibinə məğlub olan buğa göz yaşlarını tuta bilməyib. Sanki qürurlu bir insan kimi məğlubiyyətin əzikliyini yaşayan buğanın ağlaması kameralar tərəfindən də çəkilib. Xatırladaq ki, səhər saatlarında çəkisi 500 kilo civarında olan buğaların qarşılaşması ilə başlayan güləşlər axşam hava qaralana qədər davam edib.



## Sahibsiz heyvanlara Yeni il hədiyyəsi verildi

ABŞ-ın Ayova ştatında yerli heyvan sığınacağı olan Animal Rescue Leaguedə qalan heyvanlar Milad bayramı münasibətilə özlərinə hədiyyə seçiblər. Bu barədə videoyazı 21 dekabrda internetdə yayılıb. 6 gün ərzində videonu 48 min nəfər izləyib. Heyvanlara alınan oyuncaqların pulu isə sığınacağa verilən ianələr hesabına əldə edilib. Məlum olub ki, sığınacaq rəhbərliyi hər bayramda heyvanları sevindirməyə çalışır. Onun fikrincə, heyvanların da insanlar kimi sevinməyə, bayramı hiss etməyə haqqı var.



## Alimlərdən xəbərdarlıq: soyuqda xəstələnməmək üçün burnunuzu şərflə bağlayın

İsveçrə alimləri sübut ediblər ki, şaxtalı havada burnu şərflə bağlamaq soyuqdəymə riskini azaldır. Bu barədə lenta.ru saytı "The Daily Telegraph"a istinadən xəbər verir. Araşdırmaçılar bildirir ki, hər 5 adamdan biri rinovirus daşıyıcısıdır ki, bu da insanın immun sisteminə olduqca ciddi təsir göstərir. Bununla yanaşı, alimlər müəyyənləşdiriblər ki, bədənin temperaturu immunitetə daha çox təsir edir, nəinki virusun özü. Bu səbəbdən də orqanizmi çökdürən soyuq havanın burun dəliklərindən içəri girməsinin qarşısını almaq üçün onu şərflə bağlamaq vacib şərtdir. Nəşr xatırladır ki, daha öncə bir qrup həkim insanların xəstələnməməsi üçün onların nazik geyinməsini məsləhət görürdü.

# 15 yaşlı qızın ad gününə minlərlə insan gəldi

Minlərlə insan 15 yaşlı Meksika sakininin ad gününü qeyd etməyə yığışıb. Meksikanın San-Luis-Potosi ştatında keçirilən ad gününə bu qədər adamın yığışmasına səbəb isə virtual dəvətnamənin yayılmasıdır. Dekabrın əvvəlində qızın valideynləri Rubi İbarra Qarsii internetdə video yayaraq, hər kəsi bu ad gününə çağırıb. Qonaqlara yemək, içki, canlı musiqi, eləcə də 500 dollar mükafatı olan yarış vəd ediblər. Tezliklə bu dəvətnaməni Meksikanın yarısı gördü, 800 min nəfər videoya baxış etdi və internetdə ciddi müzakirələrə səbəb olub.

Rubinin ad günü barədə telekanallarda da danışıblar. Dəvətnaməni meksikalı aktyor Qael Qarsiya Bernal da parodiya edib. Bayrama baş çəkmək üçün populyar musiqiçilər Larri Hernandes və El Komander də təkliflə çıxış edib. Uber qızın ad gününə getmək istəyənlər üçün endirim elan edib. İnternet aviakampaniyası isə San Luis Potosiyə edilən uçuşlara "Rubinin ad gününə uçursuz" şüarı ilə təşkil edib. Facebookda ad günü eventini 1.2 milyon nəfər bəyənib. Onlardan bir neçə mini iştirak edəcəyi ilə bağlı vəd verib. Rubi ailəsi isə qonaq axınına hazırlaşıb və onlarla stul düzüb. Səbəbkar isə qonaqlarını qızğın şəkildə salamlayıb. Qızın atası isə deyib ki, bu dəvətin niyə böyük rezonans doğurması onun üçün da qaranlıqdır. Çünki onlar bu dəvətnaməni hazırlayanda ancaq qohum və qonşuları düşünürmüş.





## Qadın xəyanət edən ərinin sendviçinə zəhər qatdı

ABŞ-ın Florida ştatında, Bartou şəhərində bir qadın ərini balıqlı sendviçlə zəhərləmək istəyib. 37 yaşlı Beth Dickison Richards adlı qadın "üçüncü dərəcəli" cinayətə təşəbbüs etdiyi üçün saxlanıb. Kişi bildirib ki, həyat yoldaşı ona israrla sendviçi yeməyi təklif edib. O da bunun zəhərli olmasından şübhələnməyərək, həyat yoldaşının təklifini qəbul edib. Nəticədə sendviçi yeyəndən qısa müddət sonra kişi mədə bulantısı şikayəti ilə xəstəxanaya aparılıb. Xəstəxanadakı ilkin müayinə zamanı kişinin zəhərləndiyi ortaya çıxıb. Qadın isə öz günahını qəbul edib. Deyib ki, əri ona bir neçə dəfə xəyanət etdiyi üçün bu formada intiqam almaq istəyib.




QOÇ - İşlərinizə mane olan bədxahlara qarşı tədbirli olun. Bu təqvimdə həmkarlarınıza da çox bel bağlamayın. Əgər bu gün işləməsəniz, mənfi çalarlı heç bir hadisə baş verməyəcək.

BUĞA - Yeni il yaxınlaşdıqca öhdəlikləriniz də artmaqdadır. Ətrafınızda olanlara biganə yanaşmayın. Sizə ehtiyac duyanlara mərhəmət göstərin. Şəxsi işlərinizdə dönüş gözlənilir.

ƏKİZLƏR - Ailədaxili məsələlərə təmkinlə yanaşsanız, mənfi enerjili qüvvələr sizi yoldan döndərə bilməyəcək. Bugünkü təqvimdə maddi rifah halınızın yüksələcəyinə də inam bəsləyin.

XƏRÇƏNG - Ən düşərli zaman kəsiyindən məhz siz keçəcəksiniz. Sevindirici xəbərlər, perspektivli təkliflər ovqatınıza müsbət təsir göstərəcək. Sevgi amili isə daha ön plana çəkiləcək.

ŞİR - Özünüz şərait yaratmasanız, kimsə işlərinizə müdaxilə etməyəcək. Pulla bağlı sövdələşmə və planların heç birini təxirə salmayın. Axşama doğru maraqlı insanlarla görüşəcəyiniz də mümkündür.

QIZ - Ailə-sevgi münasibətlərinə həssas yanaşsanız, qarşınızı kəsən digər maneələri asanlıqla dəf etmək imkanı qazanacaqsınız. Şəxsi büdcənizi mənasız məsrəflərə xərcləməyin.

TƏRƏZİ - Yaxşı olar ki, ixtiyarınızda olan bu təqvimi neytral şəkildə ötürəsiniz. Hansısa qeyri-adiliklərə, risklərə getməyin. Sağlamlığınıza isə xüsusi diqqət yetirin. Sövdələşmələrdən yayının.

ƏQRƏB - Ümumi ovqatınızda müəyyən natarazlıq olsa da, bunun səbəbi insanlardan yox, təbiətin pozulmuş ahəngindən irəli gəlir. Buna baxmayaraq, ulduzlar perspektivli təkliflər alacağınızı göstərir.

OXATAN - Gərgin bir gün yaşaya bilərsiniz. Orqanizminizdə baş qaldıran nasazlıq və qarşılıqlı münasibətlərdə gərginlik sizi yora bilər. Nəzərə alın ki, saat 19:11-ə qədər mənfi enerjili Ay bürcünüzdədir.

OĞLAQ - Astroloji göstəricilər soyuqdəymə halları ilə rastlaşacağınıza işarə edir. Qalın geyinməklə bahəm, qida və yuxu rejiminə də fikir verməlisiniz. İndi "hakim" bürc olduğunuzu unutmayın.

SUTÖKƏN - Bayram ovqatlı bu gözəl təqvim sizin üçün ən düşərli ərəfə olacaq. Narahat olmağa heç bir səbəb yoxdur. İstənilən sövdələşmədə iştirakınız uğurlu olacaq. Uzaq səfərə çıxmağa dəyər.

BALIQLAR - Daxili sıxıntılarınıza biganə yanaşmayan Göy qübbəsi bu təqvimdə qayğınıza qalacaq. Sizsə öz növbənizdə başqalarının işinə qarışmamalı, yalnız öz problemlərinizlə məşğul olmalısınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İnsan üçün "ikinci dəri" yaradıldı



Alimlər insanları cavanlaşdırmaq üçün yeni krem icad ediblər. Polimlərdən əldə edilən krem dəriyə sürtüləndə ikinci bir dəri kimi qoruyucu təbəqə təşkil edir. Alimlər qadınların qorxulu röyası olan qırışlara qarşı insan dərisini təqlid edən və dəri üzərində "ikinci bir dəri" təşkil edən krem yaradıb. Harvard Universiteti Tibb Fakültəsi və MİT araşdırmaçıları tərəfindən hazırlanan polimer krem üzə vurulandan sonra quruyub dəri üzərində elastik bir "ikinci dəri" yaradır. Laboratoriyada silikon və oksigen molekulları tətbiq olunaraq hazırlanan polisiloksan polimerdən hazırlanan krem qırışan dərini toparlamaq və göz altındakı torbaları yox etmək üçün istifadə olunur. Krem suya davamlıdır və 24 saat xarab olmadan dərinin üstündə qala bilir.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750